6 dekabr 2019-cu il
№46 (8861)

www.muallim.edu.az
muallim@edu.gov.az

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı

*Təhsil millətin gələcəyidir!*
*Heydər Əliyev*

## Bu sayımızda

Gəlin, hamımız bir könüllü olaq ⇨səh.2

Bütün strateji proqramlarda təhsil strateji xətt təşkil edir ⇨səh.4

Təhsil Nazirliyi yanında İctimai Şuranın Fəaliyyət Planı təqdim olunub ⇨səh.5

"Dövlət Proqramı mənə xarici ölkədə təhsil almaq imkanı verdi" ⇨səh.8

# Rəqabətli ali təhsilə doğru

## Hədəfdə yeni alimlər nəslinin yetişdirilməsidir



Qlobal çağırışlar ali təhsil sistemində sürətli dəyişikliklərin aparılmasını zəruri edib. Ali təhsildə rəqabətliliyin təmin olunması isə ilk növbədə universitetlərdə aparılan elmi tədqiqatların səviyyəsindən, yeni akademik mühitin yaradılmasından, gənc tədqiqatçılar nəslinin yetişdirilməsindən bilavasitə asılıdır. Son illərdə Təhsil Nazirliyinin təşəbbüsü ilə ənənəvi olaraq keçirilən doktorant və gənc tədqiqatçıların elmi konfransları ölkəmiz, təhsil sistemimiz qarşısında duran hədəflərə çatmaqda mühüm rol oynayır. Bu silsilədən dekabrın 3-4-də Azərbaycan Memarlıq və İnşaat Universitetində keçirilən doktorant və gənc tədqiqatçıların XXIII konfransı öz əhatəliliyinə və məzmununa görə fərqlənirdi.

Tədbiri giriş sözü ilə açan AzMİU-nun rektoru, professor Gülçöhrə Məmmədova konfransın doktorant və gənc tədqiqatçıların elmi yaradıcılığının stimullaşdırılması, onların elmi potensialının üzə çıxarılması baxımından əhəmiyyətini qeyd edib. Rəhbərlik etdiyi ali təhsil müəssisəsində son illər ərzində müvafiq strategiyaların qarşıya qoyduğu hədəflərə çatmaq üçün görülən işlərdən bəhs edən rektor universitetin nəzdində fəaliyyət göstərən 6 elmi-tədqiqat laboratoriyasının gənc alimlərin tədqiqat aparmaları üçün baza rolunu oynadığını bildirib.

⇨Ardı səh.3

# İnklüziv təhsillə inklüziv cəmiyyətə

Bu günün qəhrəmanı odur. Adı Mahirdir. Ata-anasının göz bəbəyidir, kimin ona necə baxmağından, onda nə görməyindən asılı olmayaraq. Məktəbə yox, atası ilə onun iş yerinə getməkdə israrlı idi. Ancaq bir şey olur və o, gələcəyə gedir. Birdən-birə heç kəsin fərqli davranmadığı, qəribə varlığa baxırlarmış kimi gözlərin ona dikilmədiyi bir dünyaya düşür. Onun kimi biri-birindən fərqli uşaqların bir yerdə yaşadığı, oynadığı, oxuduğu, əyləndiyi bir dünya. Orada hamı bərabərdir: burada sağlamlıq imkanları məhdud olanları digərlərindən ayırmırlar. Bu dəfə gördüklərindən Mahir təəccüblənir. Niyə heç kim ona qəribə baxışlarla baxmır. Öz zəmanəsindən şikayət edən Mahirə gələcəkdə qarşılaşdığı uşaq deyir: "Yer kürəsinə gedəcək uşaqlara deyəcəyəm ki, əl arabasında gördükləri uşaqlara fərqli davranmasınlar".

Mahir xəyallar aləmindən öz dünyasına qayıdan kimi ata-anasına yeni qərarını bildirir: atası ilə onun iş yerinə yox, tay-tuşları ilə birgə təhsil almaq üçün məktəbə yollanacaq.

"Bərabərik" tamaşası bitir. Mahir səhnədən düşüb Rəsul olur. Səhnənin olduğu kimi, burda da günün qəhrəmanı odur, onun kimi uşaqlardır.

### "Onlarla özüm arasında heç bir fərq görmürəm"

13 yaşlı Rəsul Zəkiyev. Hazırda VIII sinifdə oxuyur. 117 nömrəli tam orta məktəbin şagirdidir. Məktəbə getmək istəyini ata-anasına hələ ikinci sinifdə oxuyarkən bildirib və baxışlara, sözlərə, hətta ondan "qorxub-çəkinən"lərə rəğmən hər gün evdən məktəbə gedib. Maraqlıdır, Rəsul bu fərqi öz həyatında hiss edibmi? Deyir ki, inklüziv təhsil sayəsində artıq bir çox şey dəyişib: "İndi yox. Əvvəllər hiss edirdim. Artıq sinif yoldaşlarımla dostuq. Getdikcə inklüziv təhsil inkişaf edir. Məktəbə təzə gələndə məndən çəkinir, yaxınlaşmırdılar. Mən onlara yaxınlaşdım. Zamanla gördülər ki, mənimlə də dostluq edə bilərlər. Artıq inklüzivliyin nə olduğunu bilirlər. Onların arasında çox yaxın dostlarım var. Həm özüm kimi sağlamlıq imkanı məhdud, həm də tamamilə sağlam uşaqlarla dostluq edirəm. Onlarla özüm arasında heç bir fərq görmürəm".

Rəsul deyir ki, uşaqlar biri-birinə qəribə baxmaya, ilk andan qaynayıb-qarışa bilərlər. Bunun üçün valideynlər uşaqları ilə söhbət eləməlidirlər: "Onlar uşaqlarına deməlidirlər ki, sağlamlıq imkanı məhdud uşaqları görəndə təəccüblə baxmasınlar. Elə ilk andan onlarla söhbət eləməyə, dost olmağa çalışsınlar".

Rəsulun, necə deyərlər, 10 barmağında 10 qabiliyyət var: oxuyur, oynayır, hələ üstəlik ağırlıq qaldırır. Gələcəklə bağlı xəyallar aləmində yaşamır, real düşünür. Böyüyəndə isə biznesmen olmaq istəyir. Ancaq o vaxta qədər gerçəkləşdirəcəyi çox planı var: "Tarix, biologiya və coğrafiyanı çox sevirəm. Dərslərimi yaxşı oxuyuram. İdmanla da məşğul oluram. Ağırlıqqaldırma üzrə nailiyyətlər qazanmaq, Azərbaycanın bayrağını zirvələrə qaldırmaq istəyirəm.

⇨Ardı səh.5

# Ötən ay Təhsil Nazirliyinə 14877 müraciət daxil olub

Təhsil Nazirliyinin Telefon Məlumat Mərkəzinə ("Qaynar xətt" xidməti, telefon: 146) daxil olan zənglər və Vətəndaşların Qəbulu Mərkəzində 2019-cu ilin noyabr ayında vətəndaşlara göstərilən xidmətlərlə bağlı statistika açıqlanıb.

Qeyd olunan müddət ərzində həmin mərkəzlərə ümumilikdə 14877 müraciət daxil olub.

Statistikaya əsasən, Telefon Məlumat Mərkəzində 12907 zəng qəbul edilib.

Vətəndaşların Qəbulu Mərkəzində isə bu dövrdə 1970 vətəndaşa xidmət göstərilib.

Telefon Məlumat Mərkəzinə və Vətəndaşların Qəbulu Mərkəzinə daxil olmuş müraciətlərin (əsasən sorğu xarakterli olub) əksəriyyəti dərhal cavablandırılıb və operativ həll olunub. Vətəndaşların Qəbulu Mərkəzində 1196 sənəd (383 ərizə, 813 məktub) qəbul olunub və qeydiyyata alınıb.

Daxil olan müraciətlər daha çox təhsil haqqı, müəllimlərin diaqnostik qiymətləndirilməsi, şagirdlərin yerdəyişməsi və ümumi təhsil sahəsinə aid digər məsələləri əhatə edib.

# Oxu sahəsində qızlar, riyaziyyatda isə oğlanlar üstündür

## Təhsilin inkişafı istiqamətində görülən işlər nəticələri yaxşılaşdırıb

Dekabrın 4-də Təhsil Nazirliyində PISA (Programme for International Student Assessment) - Beynəlxalq Şagird Qiymətləndirilməsi Proqramının 2018-ci il üzrə nəticələri və beynəlxalq ikili diplom proqramlarına həsr olunmuş mətbuat konfransı keçirilib.

Təhsil nazirinin müşaviri Elnur Məmmədov "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" çərçivəsində beynəlxalq ikili diplom proqramları barədə ətraflı məlumat verib. O qeyd edib ki, beynəlxalq ikili diplom proqramının əsas məqsədi ali təhsil sistemində keyfiyyət məsələləri, təhsil müəssisələrində məzmun və keyfiyyət göstəricilərinin qabaqcıl ali təhsil müəssisələrinin tədris proqramlarına uyğunlaşdırılması və onun vasitəsi ilə həmin tədris proqramlarının müasirləşdirilməsidir: "Təbii ki, burada elmin son və qabaqcıl nailiyyətlərindən, həmin təhsil müəssisələrinin elmi tədqiqatlarından istifadə edilməlidir. Həmçinin, ikili diplom proqramları tətbiq olunduqdan sonra Azərbaycana xarici müəllim və professor heyətinin dəvət olunması, tədrisin onlar tərəfindən aparılması, təhsilin məzmun və keyfiyyətinin yüksəldilməsi kimi konkret istiqamətlər də nəzərdə tutulub".

Təhsil Nazirliyinin Beynəlxalq əməkdaşlıq şöbəsinin müdir müavini Tural Əhmədov qeyd edib ki, Dövlət Proqramı çərçivəsində ilkin mərhələdə 5 beynəlxalq ikili diplom proqramının təsis olunması planlaşdırılır. Beynəlxalq ikili diplom proqramlarının ölkəmizin inkişaf prioritetlərinə uyğun sahələr (kənd təsərrüfatı, tibb, təhsil, informasiya texnologiyaları, mühəndislik və digər) üzrə həyata keçirilməsi planlaşdırılır.

T.Əhmədov ölkəmizdə fəaliyyət göstərən yerli ali təhsil müəssisələri ilə xarici təhsil müəssisələri arasında uğurlu ikili diplom proqramları həyata keçirildiyini vurğulayıb: "Yeni proqramın özəlliyi bundan ibarətdir ki, 5 istiqamət üzrə nəzərdə tutulub. Universitetlərin sıralamasına gəldikdə isə "Times Highers Rankgins" və Şanxay Universitet sıralamasına istinad edilir. Bundan əlavə, işğal olunmuş Azərbaycan ərazilərində yerləşən universitetlərlə əməkdaşlıq etməyən universitetlər nəzərdə tutulub. Beynəlxalq ikili diplom proqramlarının həyata keçirilməsi üçün nazirliyin tərkibində idarəetmə qrupu yaradılacaq. Azərbaycan vətəndaşlarının seçimi Dövlət İmtahan Mərkəzinin keçirdiyi imtahan nəticəsində müəyyən olunacaq".

⇨Ardı səh.4

# İmkan, imkansızlıq və təhsil

Varlı ailələrin uşaqları yaxşı oxuyur, yoxsa kasıb? Bu barədə düşünmüsünüz? Dəqiq statistika olmasa da, hər il ali məktəblərə daxil olan gənclər barədə qəzet səhifələrində məqalə oxuyanda və ya telekanallarda reportajlara baxarkən xeyli sayda imkansız ailələrdən olan uşaqların yüksək bal topladıqlarının şahidi oluruq. Sovet sistemi sinfi bərabərsizliyi inkar etsə də, hər kəs bilirdi ki, ölkədə imkanlı ailələr də var, kasıb ailələr də. Elə o vaxt da ucqar kəndlərdən müttəfiq respublikaların paytaxtlarına üz tutub ali məktəblərə daxil olan yüz minlərlə kasıb ailə təmsilçisi var idi.

İndi zəmanə dəyişib. Postsovet məkanı üçün. Qərbdə olduğu kimi, övladına daha keyfiyyətli təhsil vermək istəyən valideyn onu nüfuzlu orta və ali təhsil ocaqlarına yönəltmək imkanına malikdir. Və prinsipcə, kriminal heç nə yoxdur: bazar iqtisadiyyatı, kapitalizm və sadəcə biznes. Bu reallıq yuxarıda verdiyimiz suala cavabın statistikasına köklü şəkildə təsir göstərir. Qərbdə aparılan araşdırmaların nəticələri göstərir ki, imkanlı ailələrdən olan uşaqlar və gənclər kasıblardan daha yaxşı oxuyurlar. Səbəb, təbii ki, bəllidir: keyfiyyətli təhsil, zəngin tədris materialı və s. Bütün bunlar aydındır. Ancaq sən demə, məsələ tək şərait fərqi ilə bitmir.

### İmkan çoxdursa, IQ yüksəkdir?

Araşdırmaların nəticələrindən məlum olub ki, imkanlı və imkansız ailələrin uşaqlarının beyni fərqli şəkildə inkişaf edir. Cəmiyyəti öyrənən istənilən şəxs deyə bilər: axı burada qeyri-adi nə var? Sosial bərabərsizlik öz işini görür. Bununla belə, amerikalı alimlər belə qənaətə gəliblər ki, kasıb və varlı təbəqənin uşaqlarında beyin fərqli inkişaf yolu keçir.

⇨Ardı səh.8



# "Moskva dostları qarşılayır"

## İncəsənət Gimnaziyasının şagirdlərinin beynəlxalq festivalda növbəti uğuru

Səh.8



# Əlibaba Məmmədovun 90 illiyinin qeyd edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2020-ci ilin fevral ayında Azərbaycan muğam sənətinin görkəmli nümayəndəsi, Xalq artisti Əlibaba Balaəhməd oğlu Məmmədovun anadan olmasının 90 illiyi tamam olur.

Dərin tarixi köklərə malik Azərbaycan xanəndəlik məktəbinin layiqli davamçısı kimi Əlibaba Məmmədov milli musiqi xəzinəsini daha da zənginləşdirmiş böyük sənətkardır. Klassik muğam irsinin saflığının qorunub saxlanmasını yaradıcılığının başlıca qayəsinə çevirən ustad xanəndənin repertuarındakı muğamlar ifaçılıq sənətinin kamil nümunələri səviyyəsinə yüksəlmiş və musiqi mədəniyyətimizin qızıl fonduna daxil olmuşdur. Özünəməxsus ifa üslubu, məlahətli səsi və yüksək səhnə mədəniyyəti Əlibaba Məmmədova xalqın sevgisini qazandırmışdır. Sənətkarın mahir ifaçısı olduğu rəngarəng muğam və təsniflərlə yanaşı, müəllifi olduğu mahnılar dinləyicilərin qəlbində silinməz izlər qoymuşdur. Muğamın tədrisi sahəsində uzun illər uğurla çalışan tanınmış pedaqoq Əlibaba Məmmədovun yaradıcılıq yolu gənc xanəndələr nəsli üçün bir sənət məktəbidir. Muğamla bağlı gerçəkləşdirilən müxtəlif layihələrdə daimi və səmərəli iştirakı onun muğam ifaçılığı ənənələrinin yaşadılması istiqamətində fəaliyyətinin mühüm mərhələsi hesab edilə bilər.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan musiqi mədəniyyətinin inkişafı və təbliğində xüsusi xidmətlər göstərmiş Əlibaba Məmmədovun anadan olmasının 90-cı ildönümünün layiqincə qeyd olunmasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə birlikdə Xalq artisti Əlibaba Məmmədovun 90 illiyi ilə bağlı tədbirlər planı hazırlayıb həyata keçirsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 5 dekabr 2019-cu il*

# S.H.Məhərrəmovun Naxçıvan Dövlət Universitetinin rektoru vəzifəsindən azad edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Saleh Heydər oğlu Məhərrəmov Naxçıvan Dövlət Universitetinin rektoru vəzifəsindən azad edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 3 dekabr 2019-cu il*

# E.S.İsayevin Naxçıvan Müəllimlər İnstitutunun rektoru vəzifəsindən azad edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Elbrus Saleh oğlu İsayev Naxçıvan Müəllimlər İnstitutunun rektoru vəzifəsindən azad edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 3 dekabr 2019-cu il*

# E.S.İsayevin Naxçıvan Dövlət Universitetinin rektoru təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Elbrus Saleh oğlu İsayev Naxçıvan Dövlət Universitetinin rektoru təyin edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 3 dekabr 2019-cu il*

# Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Baş Prokurorluğun Mətbuat xidmətlərinin məlumatı

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən uğurlu islahatlardan biri kimi, təhsil sektorunun inkişafına yönələn dövlət proqramları və layihələrin icrası nəticəsində peşə təhsili xidmətlərinin müasir tələblər səviyyəsində qurulması istiqamətində mühüm addımlar atılır.

Bununla yanaşı, dövlətin bu sahədə həyata keçirdiyi mütərəqqi siyasətə kölgə sala biləcək qanunsuz hərəkətlərə qarşı ən ciddi mübarizə tədbirləri davam etdirilməkdədir.

Bu çərçivədə Oğuz Peşə Məktəbinin direktorunun qanunsuz hərəkətləri barədə əldə edilmiş əməliyyat məlumatları əsasında Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən Təhsil Nazirliyinin əməkdaşlarının iştirakı ilə birgə təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri həyata keçirilmişdir.

Bu tədbirlərlə Oğuz rayonu, Bayan kəndində yerləşən Oğuz Peşə Məktəbinin direktoru Azər Nəcməddinovun məktəbin digər işçiləri vasitəsilə peşə məktəbində təhsil alan şagirdlərin “Kapitalbank" ASC tərəfindən təqdim edilmiş plastik kartlarından istifadə etməklə, 2017-2019-cu illər ərzində onların aylıq təqaüdlərini ələ keçirməsinə əsaslı şübhələr müəyyən edilmişdir.

Fakta görə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində Cinayət Məcəlləsinin 308.1-ci (Vəzifə səlahiyyətlərindən sui-istifadə) maddəsi ilə cinayət işi başlanmışdır.

Cinayət işi üzrə hərtərəfli, tam və obyektiv istintaq aparılmasını təmin etmək məqsədilə A.Nəcməddinovun, baş usta İmdad İsmayılovun, baş mühasib və digər işçilərin xidməti otaqlarında, yardımçı sahələrdə, o cümlədən A.Nəcməddinovun yaşadığı rayonun Kərimli kəndində yerləşən evində məhkəmə qərarı ilə axtarış aparılmış, peşə məktəbinin şagirdlərinə məxsus 39 ədəd plastik kart, şagirdlər tərəfindən təhsil haqqı kimi ödənildiyi bildirilmiş 600 manat pul və iş üzrə digər əhəmiyyətli sənəd və əşyalar aşkar edilərək götürülmüşdür.

İstintaq zamanı toplanmış ilkin sübutlarla Azər Nəcməddinovun qeyd edilən qanunsuz hərəkətləri törətməsinə əsaslı şübhələr müəyyən edildiyindən, o, şübhəli şəxs qismində tutulmuşdur.

Hazırda cinayət işi üzrə qeyd olunan qanunsuz halların hərtərəfli araşdırılmaqla təqsirli şəxslərin və qanuni mənafeləri pozulmuş şagirdlərin dairəsinin tam müəyyənləşdirilməsi, habelə vurulmuş ziyanın ödənilməsinin təmin olunması istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Azərbaycan Respublikasının Baş Prokurorluğu və Təhsil Nazirliyi bu qəbildən olan qanunazidd hallarla üzləşən ölkə vətəndaşlarına müraciət edərək Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin 161 saylı “Qaynar xətt” əlaqə mərkəzinə məlumat vermələrini xahiş edir.

# “Səninlə danışmaq istərəm”

Bakı Slavyan Universitetində (BSU) Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın yaradıcılığına həsr olunan “Səninlə danışmaq istərəm” adlı ədəbi-bədii kompozisiya keçirilib.

Tədbir Pedaqoji fakültənin “Xarici dil müəllimliyi” ixtisasının rus dili üzrə təhsil alan tələbələrinin “Kitab günü” layihəsi çərçivəsində təşkil olunub.

Ədəbi-bədii kompozisiya BSU-nun “Arzu” rəqs ansamblının ifasında “Qarabağın maralı” rəqsinin nümayişi ilə başlanıb.

Sonra Pedaqoji fakültənin “Xarici dil müəllimliyi” ixtisasının rus dili üzrə təhsil alan tələbələri Leyla Əliyevanın şeirlərini rus dilində səsləndiriblər.

Tədbir çərçivəsində Leyla Əliyevanın müəllifi olduğu rəsm əsərlərindən ibarət sərgi də keçirilib. Ədəbi-bədii kompozisiyada isə ümummilli lider Heydər Əliyevə ithaf etdiyi “Elegiya” şeiri təqdim olunub.

Sonda tələbə-gənclərin ifasında rus dilində “Azərbaycan” mahnısı səsləndirilib.

# “Cisco” təcrübəsinin, innovativ həll və texnologiyaların təhsil sahəsində tətbiqi üzrə işlər aparılacaq

Dekabrın 2-də Təhsil naziri Ceyhun Bayramov “Cisco” şirkətinin nümayəndələri ilə görüşüb.

## Təhsil naziri “Cisco” şirkətinin nümayəndələri ilə görüşüb



Görüşdə “Cisco” şirkətinin vitse-prezidenti Qay Didrix, şirkətin Rusiya və MDB ölkələri üzrə vitse-prezidenti Conatan Sperou, şirkətin regional və Azərbaycan üzrə menecerləri iştirak ediblər.

Görüşdə “Cisco” şirkəti ilə əməkdaşlıq çərçivəsində Azərbaycanda təhsil sahəsində əldə olunan nailiyyətlər barədə məlumat verilib. Qeyd edilib ki, Azərbaycan Təhsil Şəbəkəsinin quruluşu çərçivəsində “Cisco” şirkəti ilə yaxından əməkdaşlıq edilib. Şirkətin təqdim etdiyi həllər vasitəsilə təhsil müəssisələrində İP-telefoniya, videokonfrans rabitə sistemi, vahid təhsil platforması yaradılıb. Hazırda “Cisco” Şəbəkə akademiyalarının Azərbaycanda sayı 13-ə bərabərdir. Onlardan 5-i ali təhsil müəssisələrində, digərləri isə özəl qurumlarda yerləşir. Akademiyalarda İT texnologiyalarının əsasları və əməliyyat sistemləri, əşyaların interneti, proqramlaşdırma, şəbəkə texnologiyaları və təhlükəsizliyi, həmçinin kibertəhlükəsizlik istiqamətləri üzrə təlim kursları keçirilir.

Tərəflər əməkdaşlığın davam etdirilməsi və birgə yeni layihələrin həyata keçirilməsi barədə fikir mübadiləsi aparıblar. Müzakirə nəticəsində “Cisco” təcrübəsinin, innovativ həll və texnologiyalarının təhsil sahəsində tətbiqi üzrə işlərin aparılması nəzərdə tutulub.

# Gəlin, hamımız bir könüllü olaq

**Ruhiyyə DAŞSALAHLI**

## Azərbaycanda Könüllülərin 2-ci Həmrəylik Forumu keçirilib



Dekabrın 5-də “Azərbaycan Könüllülük Həftəsi” çərçivəsində 3 minə yaxın gəncin iştirakı ilə Azərbaycan Könüllülərinin 2-ci Həmrəylik Forumu keçirilib. Forum Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və Gənclər Fondunun birgə təşkilatçılığı ilə reallaşdırılıb. Bu çərçivədə ölkədə fəaliyyət göstərən bütün könüllü hərəkatlarının və gənclər təşkilatlarının sərgisi də təşkil olunub.

Tədbir Dövlət himninin oxunması və Azərbaycanda könüllülük hərəkatının inkişaf mərhələlərini əks etdirən videoçarxın nümayişi ilə başlanıb.

Gənclər Fondunun icraçı direktoru Fərid Cəfərov Prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə gənclər siyasəti sahəsində, xüsusilə könüllülük hərəkatının inkişafı istiqamətində həyata keçirilən tədbirlərin müstəsna əhəmiyyətini diqqətə çatdırıb. Müxtəlif dövlət qurumlarında könüllülər hərəkatının genişləndirilməsinin əhəmiyyətini vurğulayıb. Dekabrın 1-9-da qeyd edilən könüllülük həftəsi çərçivəsində könüllülərin gördüyü işlərdən danışıb. İcraçı direktorun sözlərinə görə, könüllülər 17 şəhər və rayonda 147 şəhid ailəsini ziyarət ediblər. 7 şəhər və rayonda 19 uşaq evi, internat məktəbləri və ahıllar evində sosial işlər təşkil edilib, 10 şəhər və rayonda kütləvi ekoloji aksiyalar keçirilib. Ümumilikdə, tədbirlərdə 10 mindən artıq gənc könüllü iştirak edib.

Forumda çıxış edən Təhsil nazirinin müavini Firudin Qurbanov gənclərin formalaşmasında və gələcəkdə səmərəli fəaliyyətlə məşğul ola bilmələrində könüllü kimi fəaliyyətlərinin müstəsna rol oynayacağına diqqət çəkib: “Könüllülük gənclərin gələcək fəaliyyətində onlara kömək olacaq keyfiyyətlər formalaşdırır. İlk növbədə, komanda mühitində işləmək və ünsiyyət bacarığını inkişaf etdirir. Dünyada aparılan tədqiqatlar da göstərib ki, könüllülük fəaliyyəti ilə məşğul olanlar bu iki kompetensiya üzrə yüksək nəticələr göstərir”.

Nazir müavini ölkə Prezidenti İlham Əliyevin Bakı Dövlət Universitetinin 100 illik yubileyində çıxışı zamanı təhsilin və gənclərin qarşısına qoyduğu vəzifələrə də toxunub: “Gələcəkdə ehtiyac olacaq ixtisaslara hazır olmaq üçün gənclər bir çox bacarıqlarını inkişaf etdirməlidirlər. Məhz könüllülük fəaliyyəti imkan verəcək ki, gələcəkdə özünüzə layiqli yer tuta biləsiniz”.

Könüllülük fəaliyyətinə, gənclər siyasətinə Azərbaycanda çox böyük önəm verildiyini deyən F.Qurbanovun fikrincə, dövlətin diqqəti və qayğısı sayəsində könüllülər bütün sahələrdə, o cümlədən təhsil sahəsində fəal iştirak edirlər. Təhsildə “Bir” Könüllü platformasında uğurla davam edən bu fəaliyyət artıq 23 min tələbəni əhatə edir.

Gənclər və İdman nazirinin müavini İntiqam Babayev, Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədr müavini Ceyhun Salmanov könüllülük fəaliyyətinin təşkilindən, bu fəaliyyətin genişlənməsindən danışıblar.

BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Qulam İsakzai BMT Baş katibinin Beynəlxalq Könüllülər Günü münasibətilə müraciətini oxuyub. O, könüllülərə müraciət edərək deyib: “Bir yaşlının yoldan keçməsinə yardım etmək könüllülük fəaliyyətidir. Bu fəaliyyətlə hər insan məşğul olur. Hər zaman könüllülük fəaliyyətinizi davam etdirin. Bir-birinizə yardım edin. Gəlin, hamımız bir könüllü olaq”.

Forum könüllülər təşkilatları və hərəkatlarının təmsilçilərinin “TEDx” formatında çıxışları və il ərzində fəallıq nümayiş etdirən könüllülərin mükafatlandırılması, həmçinin beynəlxalq müsabiqələrdə nailiyyətlər əldə edən istedadlı gənclərin təqdimatında musiqi nömrələri ilə davam etdirilib.

Sonda rəsmi qonaqlar və könüllü təşkilatların təmsilçiləri birgə xatirə şəkli çəkdiriblər.

# Rəqabətli ali təhsilə doğru

## Hədəfdə yeni alimlər nəslinin yetişdirilməsidir




⇦ Əvvəli səh.1

Oruc MUSTAFAYEV

### Hər şey rəqabətli ali təhsil üçün

Tədbirdə çıxış edən Təhsil naziri Ceyhun Bayramov konfransın Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinə həsr olunduğunu, Nəsimi poeziyasının Azərbaycan ədəbiyyatının daha da zənginləşməsində misilsiz rol oynadığını xatırladıb.

Nazir qeyd edib ki, bilik iqtisadiyyatı və innovasiyalarla xarakterizə olunan müasir dünyada davamlı və hərtərəfli inkişafın təmin edilməsində elm və təhsilin rolu sürətlə artmaqdadır. Məhz bu səbəbdən elm, təhsil və innovasiyaların inkişafı ölkəmizdə dövlət siyasətinin əsas prioritetlərindən birini təşkil edir. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası, "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası", müvafiq strateji Yol xəritələri və digər çoxsaylı dövlər proqramlarında elm, təhsil və innovasiyaların inkişafı üzrə konkret hədəflər müəyyən edilib. "Məlumdur ki, insan kapitalının davamlı inkişafı, ilk növbədə, elm və təhsilin keyfiyyəti ilə müəyyən olunur. Bu baxımdan, Azərbaycan təhsili və elminin qarşısında duran ən mühüm vəzifələrdən biri cəmiyyətin bugünkü və gələcək inkişaf səviyyəsinə adekvat olan yüksək ixtisaslı peşəkar kadrların hazırlanmasıdır. Həmin kadrların müasir təfəkkürlü və kreativ düşüncəli, səriştəyə çevrilə bilən bilik və bacarıqlara malik olması, praktiki vərdişlərlə müşayiət olunan nəzəri biliklər qazanması olduqca vacibdir".

Təhsil naziri əlavə edib ki, ölkə Prezidenti tərəfindən ötən il təsdiq olunan "2019-2023-cü illər üçün Azərbaycan ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" qeyd edilən məqsədləri özündə ehtiva edir. Proqram çərçivəsində iki istiqamət üzrə tədbirlərin həyata keçirilməsi nəzərdə tutulub. Birinci istiqamət üzrə ən qabaqcıl elmi nailiyyətlərdən, innovativ təlim və tədris texnologiyalarından yararlanmaqla ölkəmizdə yeni nəsil mütəxəssislərin yetişdirilməsi, ali təhsil sisteminin məzmun və keyfiyyət göstəricilərinin beynəlxalq ikili diplom proqramları ilə müasirləşdirilməsi və yeni akademik mühitin yaradılması, ikinci istiqamət isə yerli ali təhsil müəssisələrinin akademik potensialının gücləndirilməsi məqsədilə xaricdə doktorantura səviyyəsində təhsilin maliyyələşdirilməsi və onların işəgötürənlərlə birbaşa əlaqələndirilməsi istiqamətində tədbirlər həyata keçiriləcək. Nazirlər Kabineti tərəfindən beynəlxalq ikili diplom proqramlarının həyata keçiriləcəyi xarici tərəfdaş ali təhsil müəssisələrinin, ixtisas proqramlarının və təhsil səviyyələrinin, eləcə də xarici ali təhsil müəssisələrində doktorantura səviyyəsi üzrə təhsilin maliyyələşdirilməsi və xarici ölkələrin ali təhsil müəssisələrində doktorantura səviyyəsi üzrə təhsil alacaq Azərbaycan vətəndaşlarının seçimi qaydaları təsdiq olunub. Proqram çərçivəsində ilkin mərhələdə 5 ikili diplom proqramının təsis olunması planlaşdırılır. Bu istiqamətdə hazırda işlər görülməkdədir. Azərbaycan vətəndaşlarının xaricdə doktorantura səviyyəsi üzrə təhsili üçün prioritet ixtisaslar artıq müəyyən edilib. Siyahıda təbiət, kənd təsərrüfatı, səhiyyə, texniki və texnoloji, iqtisadiyyat və idarəetmə, təhsil, humanitar və sosial istiqamətlər yer alıb. 2020-ci ilin yaz semestri üçün xaricdə doktorantura təhsili üzrə elan da artıq verilib.

Ceyhun Bayramov qeyd edib ki, "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində də bu komponentlər nəzərə alınıb. "1538 nəfər magistratura, 575 nəfər rezidentura, 173 nəfər doktoranturada təhsil almaq hüququ əldə edib. Bu da bütün proqram təqaüdçülərinin 64 faizini təşkil edir. Əminəm ki, dünyanın aparıcı universitetlərində təhsil alan həmin gənclər yaxın gələcəkdə ölkəmizdə elmin və təhsilin inkişafına mühüm töhfələr verəcəklər".

### "Bu məsələ bizi ciddi düşündürməlidir"

Təhsil naziri kadr hazırlığı ilə əlaqədar bir sıra statistik göstəriciləri konfrans iştirakçılarının diqqətinə çatdırıb. Bildirilib ki, 2018-ci ildə ölkəmizdə fəlsəfə doktoru və elmlər doktoru hazırlanması proqramlarını həyata keçirən müəssisələrin sayı müvafiq olaraq 119 və 89 olub. Hazırda fəlsəfə doktorları və elmlər doktoru proqramları üzrə ümumilikdə 2626 nəfər təhsil alır. Fəlsəfə doktoru proqramları üzrə təhsil alanların 67 faizi, elmlər doktoru proqramları üzrə təhsil alanların 51 faizi ali təhsil müəssisələrinin payına düşür. 2018-ci ildə fəlsəfə doktoru proqramlarına 665 nəfər, elmlər doktoru proqramlarına 165 nəfər qəbul olunub. Həmin ildə fəlsəfə doktoru və elmlər doktoru proqramlarını bitirənlərin sayı isə müvafiq olaraq 605 və 87 nəfər olub. "Təəssüf doğuran odur ki, fəlsəfə doktoru proqramlarını bitirənlərin 16 faizi, elmlər doktoru proqramlarını bitirənlərin 14 faizi dissertasiya müdafiə edə bilib. Bu məsələ bizi ciddi düşündürməlidir. Hesab edirik ki, son zamanlar qəbul olunmuş mühüm qərarlar bu sahədə ciddi dönüşün yaranmasına imkan verəcək".

### Doktoranturaya qəbulda yeni qaydalar

Təhsil naziri xatırladıb ki, cari ilin oktyabrında doktoranturaların yaradılması və doktoranturaya qəbul qaydalarında dəyişikliklər edilib. Qəbul qaydalarına əsasən, mərkəzləşmiş formada xarici dil imtahanları Dövlət İmtahan Mərkəzi tərəfindən, fəlsəfə doktoru imtahanlarının isə müəyyən olunmuş bir və ya bir neçə ali təhsil müəssisəsində, elmi müəssisə və təşkilatlarda keçirilməsi nəzərdə tutulub. Xarici dil üzrə beynəlxalq sertifikatlara (TOEFL və digərləri) malik olanlar isə xarici dil üzrə qəbul imtahanından azad ediləcək. "Düşünürəm ki, bu dəyişiklik olduqca vacibdir. Çünki xarici dil bacarıqları olmadan mühüm elmi bazalara çıxış, ən qabaqcıl elmi nailiyyətlərlə tanış olmaq və onlardan bəhrələnmək mümkün deyil. Onu da qeyd edim ki, tarixən Azərbaycan ziyalıları bir neçə xarici dil biliklərinə malik olublar. Xaricdə təhsil almış peşəkar mütəxəssislər kimi ölkəmizin tərəqqisinə töhfələr veriblər. Azərbaycan ictimai fikrinin görkəmli nümayəndəsi, Sorbonna Universitetində təhsil almış, cari ildə 150 illiyini qeyd etdiyimiz Əhməd bəy Ağaoğlu, Azərbaycanı Avropada tanıdan, ilk kimyaçı alim, Almaniyada təhsil almış, Strasburq Universitetində elmi fəaliyyətlə məşğul olmuş Mövsüm bəy Xanlarov məhz belə ziyalılardan olublar".

Təhsil naziri hazırda ölkə üzrə elmlər doktoru proqramında təhsil alanlar arasında gənclərin çəkisinin artdığını bildirib. Bu səbəbdən perspektivli gənclərin elmi fəaliyyətə daha da cəlb edilməsi məqsədilə magistraturaya qəbul prosesinin sadələşdirilməsi, ixtisaslar üzrə bir mərhələdə keçirilməsi, eləcə də bu səviyyədə qəbul zamanı müvafiq ixtisaslar üzrə tələbə qəbulu sayı ilə bağlı məhdudiyyətin aradan qaldırılması üzrə ali təhsil müəssisələri ilə müzakirələr yekunlaşıb, hazırlanmış təkliflər aidiyyəti dövlət qurumları ilə razılaşdırılma mərhələsindədir.

### Davamlı rəqabətin həlledici amili

Ceyhun Bayramov qeyd edib ki, ali təhsil və elmi tədqiqatların səmərəli vəhdətini təmin edən universitetlər insan kapitalının inkişafı və innovasiyalar sahəsində daha çox uğurlar əldə edir. Bu gün tədqiqatçılıq fəaliyyəti universitetlər üçün davamlı rəqabətin həlledici amillərindən birinə çevrilib. Belə ki, dünya universitetlərinin reytinq metodologiyalarında istifadə olunan meyarlar əsasında tədqiqat fəaliyyəti QS reytinqi üzrə 20 faiz, Şanxay reytinqi üzrə 40 faiz, "Times Higher Education Rankings" üzrə 60 faiz xüsusi çəkiyə bərabərdir. "Hesab edirəm ki, bu amil beynəlxalq reytinqlərdə mövqelərini yaxşılaşdırmağı hədəfləyən universitetlərimiz tərəfindən mütləq nəzərə alınmalıdır".

Ceyhun Bayramov ali məktəblərimizin publikasiya aktivliyi məsələsinə də toxunub. Təhsil Nazirliyi ilə "Clarivate Analytics" arasında 2015-ci ildə yaradılmış əməkdaşlıq nəticəsində ölkəmizin 40 ali təhsil müəssisəsinin "Web of Science" elmi məlumat platformasına çıxışı təmin edilib. Elm və təhsil müəssisələrimizin dünyanın aparıcı elmimetrik bazasına çıxışı, yerli tədqiqatçıların səyləri nəticəsində elmi məhsuldarlıq nəzərəçarpacaq dərəcədə artıb və elmi tədqiqat işlərinin effektivliyi xeyli yüksəlib. "Web of Science" elmi bazasında 2018-ci ildə Azərbaycan üzrə 1482 elmi məqalə qeydə alınıb, publikasiya sayında son 25 ilin rekord həddi izlənilib. Cari ildə "Web of Science" indeksli elmi tədqiqat işlərinin ümumi çəkisi və nəşr aktivliyinin son 3 ildə artım dinamikasına görə Azərbaycan Cənubi Qafqaz ölkələri arasında birinciliyini qoruyub saxlayır. "Bu günə olan məlumata əsasən "Web of Science" elmi bazasında 2019-cu ildə Azərbaycan üzrə 1392 elmi tədqiqat işi artıq qeydə alınıb. Onu da qeyd edim ki, son 4 il ərzində Azərbaycan üzrə "Web of Science" də indekslənən jurnalların sayı 1-dən 8-ə qədər artıb. Lakin elmi tədqiqat işlərinin sayının artması ilə yanaşı, keyfiyyət əmsalının da artırılmasına xüsusi diqqət yetirmək lazımdır. Bu istiqamətdə əsərlərin yüksək impakt faktorlu jurnallarda çap olunması, çoxlu sayda istinad qazanılması və beynəlxalq elmi ictimaiyyət tərəfindən tanınması üçün strategiyalar hazırlanmalıdır". Təhsil naziri əlavə edib ki, beynəlxalq reytinq agentlikləri qiymətləndirmə zamanı universitetlərin ümumi publikasiya sayını deyil, publikasiyaların normallaşdırılmış istinad dərəcəsini əsas götürürlər.

Nazir doktorantura təhsilinin maliyyəlləşdirilməsi ilə bağlı vacib bir məqama da toxunub: "Bildiyiniz kimi, ali təhsilin bakalavriat və magistratura səviyyələrində adambaşına maliyyələşmə mexanizmi doktorantura səviyyəsini əhatə etməyib. Bununla əlaqədar Təhsil Nazirliyi tərəfindən ali təhsil müəssisələrində dövlət sifarişinə əsasən doktorantların təhsil xərclərinin adambaşına maliyyələşmə prinsipi əsasında həyata keçirilməsi barədə təkliflər hazırlanıb və hökumətə təqdim edilib".

### Elmin prioritet istiqamətlərinə yenidən baxılmalıdır

Təhsil naziri qloballaşan dünyada mövcud çağırışlardan danışıb. Onun sözlərinə görə, elmi tədqiqatların maliyyələşdirilməsi, texnologiyaların inkişafı və konkret olaraq innovasiyalardan danışdıqda dünyada baş verən qlobal tendensiyalar mütləq nəzərə alınmalıdır. Bu gün dünyada bir sıra risklər mövcuddur . Təbii resursların azalması, iqlim dəyişikliyi və ekoloji tarazlığın pozulması, peşə və ixtisasların sürətlə dəyişməsi kimi risklər bütün ölkələri, əlbəttə ki, Azərbaycanı da narahat edən problemlərdəndir. Həmin risklərin yaratdığı təhdidlərdən qorunmaq üçün ölkələr qlobal çağırışlara adekvat innovasiyaların, elmi strategiyaların həyata keçirilməsi istiqamətində təşəbbüsləri artırıb, yeni elmi istiqamətlər üzrə tədqiqatlara başlayıblar. "Yeni çağırışlar, ilk növbədə, postindustrial cəmiyyətin yaranması, müasir informasiya və rəqəmsal texnologiyaların yaradılması, süni intellektin geniş tətbiqi ilə bağlıdır. Belə bir şəraitdə Azərbaycanda da elmin prioritet istiqamətlərinə yenidən baxılmalı, hədəflər müəyyənləşdirilərkən qlobal çağırışlar, dünyada elmin inkişaf tendensiyaları, ölkənin sosial-iqtisadi inkişaf perspektivləri əsas götürülməli, tətbiqi tədqiqatların, xüsusi ilə də elmi innovativ fəaliyyətin gücləndirilməsi ön plana çəkilməlidir".

Nazir sonda əmin olduğunu bildirib ki, elmi nəticələrin təqdim olunması və elmi diskussiyaların aparılması üçün davamlı bir platforma statusu qazanmış konfrans yeni nəsil alimlərin yetişməsində öz mühüm töhfəsini verməkdədir.

Daha sonra AMEA-nın akademik-katibi, AMEA-nın müxbir üzvü Əminağa Sadıqov çıxış edərək son illərdə Təhsil Nazirliyi ilə Akademiya arasındakı uğurlu əməkdaşlıq əlaqələrindən bəhs edib.

Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev çıxışında gənclərin elmi tədqiqatlara cəlb olunmasında əhəmiyyətindən, BDU-nun gənc alimlərinin konfransda iştirakından danışıb.

Daha sonra gənc alimlərin təqdimatları olub. Qeyd edək ki, 2 gün davam edən konfransda 500 doktorant və gənc tədqiqatçının məruzəsi dinlənilib.

***

Söhbət etdiyimiz doktorantlar bu kimi konfransların elmi həyatlarında rolunu yüksək qiymətləndirdilər.

*Ramil Muxtarov, Milli Aviasiya Akademiyasının dosenti, elmlər doktoru hazırlığı üzrə doktorant:* - Təhsil Nazirliyinin dəstəyi ilə keçirilən konfransda, demək olar ki, ölkəmizin bütün ali təhsil müəssisələrindən olan tədqiqatçılar iştirak edir. Tədbirin hər il fərqli ali təhsil müəssisələrində təşkili doktorantlarda yeni elmi zirvələr fəth etməyə həvəs yaradır. Təhsil Nazirliyinin konfransa yüksək diqqəti təmsil etdiyim Milli Aviasiya Akademiyası da daxil olmaqla ölkəmizin bir sıra ali təhsil müəssisələrindən olan gənc tədqiqatçıların tədbirə marağını artırıb. Elmi işlərin nəticələrinin nümayişi, gənclərin aparılan diskussiyalarda iştirakı, yeni əlaqələrin yaradılması, fərqli istiqamətlərdə elmi yeniliklərlə tanış olması baxımından konfransın davamlı olaraq keçirilməsini arzu edərdim.

*Elnur Məmmədli, ADNSU-nun doktorantı:* - İlk növbədə, bu tədbirin elmə maraq göstərən gənclər üçün çox əhəmiyyətli olduğunu deyə bilərəm. Buradakı auditoriyada həm bakalavr, həm magistr səviyyələrində təhsil alan tələbələr də var. Həmin tələbələr mənə yaxınlaşır, elmi fəaliyyətimlə maraqlanırdılar, doktorantura pilləsinə getməyin məqsədəmüvafiq olub-olmadığı, praktiki əhəmiyyəti barədə suallar verirdilər. Bunların hər biri gənclərdə maraq yaradır və həmin marağı praktik olaraq mən görürəm. Konfrans gənc tədqiqatçılara məqalələrinin, tezislərinin çap olunmasına imkan verir, geniş akademik əhatə yaradır. Bu baxımdan, həm də doktorantlar üçün böyük praktik köməkliyi var.

*Kamilə Cəfərli, AzMİU-nun doktorantı:* - Tədbirin gənclərin elmi tədqiqatlara cəlb olunması, onların bu sahədə səriştə və qabiliyyətlərinin inkişafına təkan verəcəyinə əminəm. Konfrans biz doktorantlara elmi yeniliklərlə tanış olmaqla aktual mövzulara fokuslanmağa imkan verir. AzMİU-da tələbələrin elmi tədqiqatlara cəlb olunması sahəsində müsbət təcrübə var. Son illər universitetin akademik uğurlarının artması, beynəlxalq nüfuzu biz gəncləri elmi tədqiqatlara həvəsləndirir.

*Zülfiyyə Ağayeva, BDU-nun doktorantı:* - Ümid edirəm ki, konfrans gənc tədqiqatçıların bir araya gəlməsi üçün əlverişli bir platforma rolunu oynayır. Ümumiyyətlə, tədbir mükəmməl təşkil olunub. Konfrans gənc tədqiqatçıların bir araya gəlməsi və onlar arasında əlaqələrin qurulması, elmi mübadilənin aparılması nöqteyi-nəzərindən çox faydalıdır. Çox istərdim ki, konfransa təqdim olunan elmi məqalələr dərc olunsun və müəlliflər, eləcə də maraqlananlar onunla tanış ola və yararlana bilsinlər.

# 2019-2020-ci dərs ilində "Ədəbiyyat biliciləri" müsabiqəsinin keçirilməsi barədə

## Azərbaycan Respublikası Təhsil nazirinin əmri

Azərbaycan Respublikası Təhsil Nazirliyinin "Ümumtəhsil məktəb şagirdlərinin mütaliə vərdişlərinin təkmilləşdirilməsi və onlarda mütaliə mədəniyyətinin formalaşdırılması ilə bağlı tədbirlər barədə" 2014-cü il 16 dekabr tarixli 1279 nömrəli əmrinə uyğun olaraq, Azərbaycan və dünya ədəbiyyatının görkəmli nümayəndələrinin yaradıcılıqları haqqında şagirdlərin məlumatlılıq səviyyəsinin artırılması, onların mütaliəyə meyil və maraqlarının gücləndirilməsində ötən illərdə keçirilmiş "Ədəbiyyat biliciləri" müsabiqəsinin əhəmiyyətli rol oynadığını nəzərə alaraq, bu tədbirin davam etdirilməsi məqsədi ilə "Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamə"nin 13.5-ci bəndini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

**1.** 2019-2020-ci dərs ilində ölkə üzrə ümumtəhsil məktəblərinin VIII-XI sinif şagirdlərinin iştirakı ilə "Ədəbiyyat biliciləri" müsabiqəsi keçirilsin.

**2.** "Ədəbiyyat biliciləri" müsabiqəsinin ölkə mərhələsini keçirən Təşkilat Komitəsinin tərkibi təsdiq edilsin (əlavə olunur).

**3.** Müsabiqənin müvafiq mərhələlər üzrə təşkilində Təhsil Nazirliyinin 2015-ci il 1 may tarixli 535 nömrəli əmri ilə təsdiq edilmiş "Ədəbiyyat biliciləri" müsabiqəsinin keçirilməsi Qaydaları" əsas tutulsun.

**4.** Bakı Şəhəri üzrə Təhsil İdarəsinə, Gəncə Şəhər Təhsil İdarəsinə, rayon (şəhər) təhsil şöbələrinə, bilavasitə Nazirliyin tabeliyindəki ümumi təhsil müəssisələrinə tapşırılsın ki, bu əmrdən irəli gələn məsələlərin həyata keçirilməsi istiqamətində lazımi təşkilati-pedaqoji tədbirlər görülməsini təmin etsinlər.

**5.** Əsaslı Tikinti və Təchizat İdarəsi (A.Axundov) müsabiqənin keçirilməsi ilə əlaqədar mal, iş və xidmətlərin satın alınması üzrə lazımi tədbirlərin həyata keçirilməsini təmin etsin.

**6.** Ümumi və məktəbəqədər təhsil şöbəsi (A.Əhmədov) müsabiqə ilə bağlı satın alınması tələb olunan mal, iş və xidmətlər barədə məlumatı Əsaslı Tikinti və Təchizat İdarəsinə təqdim etsin.

**7.** Maliyyə şöbəsi (R.Orucov) müvafiq mal, iş və xidmətlərin satın alınması ilə əlaqədar Əsaslı Tikinti və Təchizat İdarəsinin sifarişi əsasında həmin idarəyə vəsaitin ayrılmasını təmin etsin.

**8.** İnformasiya şöbəsi (E.Məmmədov) əmrin "Azərbaycan müəllimi" qəzetində dərc olunmasını, Nazirliyin internet saytında yerləşdirilməsini və yerlərə çatdırılmasını təmin etsin.

**9.** Əmrin icrasına nəzarət nazir müavini Məhəbbət Vəliyevaya həvalə olunsun.

**Ceyhun BAYRAMOV,**
**Azərbaycan Respublikasının Təhsil naziri**

*29 noyabr 2019-cu il*

# Kolumbiyanın ölkəmizdəki səfiri ilə görüş

Dekabrın 3-də Təhsil naziri Ceyhun Bayramov Kolumbiya Respublikasının Azərbaycan Respublikasına yeni təyin olunmuş səfiri Luis Antonio Dimate Kardenas ilə görüşüb.

Görüş zamanı Ceyhun Bayramov "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın müəyyən etdiyi hədəflərə uyğun olaraq aparılan islahatlar barədə qonağa məlumat verib.

# SABAH tələbələrinin təqdimatında "Otello əfsanəsi"

Dekabrın 4-də Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin (ADMİU) SABAH qruplarının tələbələri Uilyam Şekspirin "Otello" pyesinin motivləri əsasında hazırladıqları "Otello əfsanəsi" tamaşasını təqdim ediblər.

Səməd Vurğun adına Azərbaycan Dövlət Akademik Rus Dram Teatrının səhnəsində nümayiş edilən tamaşanı Təhsil naziri Ceyhun Bayramov, ADMİU-nun rektoru Ceyran Mahmudova və müxtəlif ali təhsil müəssisələrinin rektorları izləyiblər.

Mistik ballada janrında hazırlanmış tamaşanın quruluşçu rejissoru Gümrah Ömərdir. Tamaşada SABAH qruplarında IV kurs aktyor sənəti ixtisası üzrə təhsil alan tələbələr Ziya Ağa (Otello), Fidan İsmayılova (Dezdemona), Mətləb Abuşov (Kassio), Toğrul Qasımov (Brabansio), Mirsənan Kazımlı (Yaqo), Gövhər Şabanova (Emilya), Gövhər Fidan (Bianka), Elçin Əmirov (Rodriqo), Tural Kərimov (Hersoq) çıxış ediblər.

Qeyd edək ki, ADMİU-nun SABAH qrupları Uilyam Şekspirin "Otello" pyesinin motivləri əsasında hazırlanmış "Otello əfsanəsi" tamaşası ilə bu yaxınlarda Rusiyada keçirilən Ümumrusiya Dövlət Kinematoqrafiya İnstitutunun 39-cu Beynəlxalq Tələbə Festivalında iştirak edib. Bolqarıstan, Polşa, Slovakiya, Rusiya Dövlət Teatr Sənəti İnstitutu, S.Gerasimov adına ÜDKİ, Moskva Bədaye Teatrının məktəb-studiyası, Şukin və Şepkin məktəblərinin tələbələrinin sırasında ADMİU-nun SABAH qrupları da öz yerini alıb. Tələbələr festivalda "Dünya klassikasının milli fonda bənzərsiz şərhi" və "Klassik dünya ədəbiyyatı motivləri əsasında çevik səhnə təcəssümü" diplomları ilə təltif olunub.

"Otello əfsanəsi" tamaşası, həmçinin 2019-cu ilin martında Rusiya Teatr Sənəti İnstitutunda keçirilən "QİTİS - ustad dərsi" festivalında "Ən orijinal tamaşa" seçilib. Otello rolunun ifaçısı, SABAH qrupunun tələbəsi Ziya Ağayev isə "Ən yaxşı kişi rolunun ifaçısı" nominasiyası üzrə mükafata layiq görülüb.

# Bütün strateji proqramlarda təhsil strateji xətt təşkil edir

## Azərbaycanın davamlı inklüziv inkişafı sahəsində dünya liderliyini təmin edən dövlət idarəçiliyi texnologiyaları “dəyirmi masa”da müzakirə olundu

Ruhiyyə DAŞSALAHLI

YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının yaradılmasından 25 il keçir. Bu münasibətlə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında “dəyirmi masa” keçirilib. “Azərbaycan Respublikasının davamlı inklüziv inkişafı sahəsində dünya liderliyini təmin edən dövlət idarəçiliyi texnologiyaları”mövzusunda təşkil edilən tədbir Azərbaycan Milli Elmlər Akademiyası, Xarici İşlər, Təhsil, Mədəniyyət, Ekologiya və Təbii Sərvətlər, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar, həmçinin Gənclər və İdman nazirliklərinin dəstəyilə baş tutub.



### İqtisadi, sosial, humanitar və mədəni layihələr gələcək sosial tərəqqiyə imkan yaradıb

Prezident yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov Azərbaycanda iqtisadi, sosial və humanitar sahələrdə uğurlu inkişafa nəzər salıb. Onun fikrincə, müstəqilliyimizdən bəri hər il ölkənin yeni yüksək nailiyyətləri ilə bağlı xəbərlərlə müşayiət olunub. Bunun da kökündə innovativ dövlət idarəçiliyi strategiyası durur.

“Bu gün Azərbaycan 2018-ci ildə bütün dünya üçün prioritet kimi qəbul edilən davamlı inklüziv inkişaf siyasətini səmərəli şəkildə reallaşdıran ölkədir”, - deyən U.Ələkbərov fikrini Davos İqtisadi Forumunda dünya ölkələrində davamlı inklüziv inkişafla bağlı durumun təhlilinin nəticələri ilə əsaslandırıb. Bu təhlil əsasında hazırlanan hesabata görə, Azərbaycan inklüziv cəmiyyətin formalaşdırılması və bu prosesin davamlılığının təmin olunması sahəsində əhəmiyyətli dərəcədə uğur qazanıb. Belə ki, Davos İqtisadi Forumunun 2018-ci il üçün təhlillərinə görə, Azərbaycanın inklüziv inkişaf indeksi 4.69 təşkil edib. Həmin göstərici ilə ölkəmiz bir çox dövlətləri, o cümlədən yüksək iqtisadi inkişaf səviyyəsinə malik ölkələri geridə qoyub. İqtisadi inkişaf göstəriciləri nəinki ölkəmizdən, hətta dünyadakı əksər dövlətlərdən üstün olan ABŞ, Yaponiya, İsrail, İtaliya, İspaniya, Türkiyə, Portuqaliya, Yunanıstan və s. inklüziv inkişaf göstəricilərinə görə Azərbaycandan geri qalır: “Nisbətən məhdud maliyyə imkanları şəraitində Azərbaycanın inklüziv inkişaf indeksinin iqtisadi baxımdan daha inkişaf etmiş ölkələrdəkindən yüksək olması ölkənin iqtisadi potensialının hərtərəfli inkişafı və əhalinin rifah halının yüksəldilməsi üçün daha səmərəli istifadəsinin beynəlxalq təsdiqidir. Rektor vurğulayıb ki, inklüziv inkişaf sahəsində Azərbaycanın yüksək göstəricilər əldə etməsi və sosial siyasətin reallaşdırılması baxımından dünya liderinə çevrilməsində ölkənin Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın da müstəsna xidmətləri var. Mehriban Əliyevanın insan potensialının inkişafı, inkişaf proseslərinin inklüzivliyinin təmini sahəsində təşəbbüsləri, onun rəhbərliyi altında gerçəkləşdirilən iqtisadi, sosial, humanitar və mədəni layihələr Azərbaycanın sosial indikatorlarının yüksək qalmasına, həmçinin gələcək sosial tərəqqiyə imkan yaradıb.

### Müasir kadrların səviyyəsi bilik, bacarıq və vərdişlərlə ölçülmür

Təhsil nazirinin müavini Firudin Qurbanov çıxışında qeyd edib ki, davamlı inklüziv inkişaf, dünya liderliyi, dövlət idarəçilik texnologiyaları dərin metodologiyası olan mühüm istiqamətlərdir: “Müasir dövrün tələblərinə uyğun olan bu istiqamətləri həyata keçirmək məsuliyyət və bacarıq tələb edir. Hansı dövlət bunu bacarsa, özünün dayanıqlı inkişafını təmin edir”.

F.Qurbanov hesab edir ki, ölkəmiz inkişafda yüksək nailiyyətlər əldə edib: “Bu inkişaf öz-özünə əmələ gəlməyib. İnkişafı göstərən hər rəqəmin arxasında böyük əmək, siyasət və uzaqgörənlik, bir sözlə, möhkəm təməl dayanır ki, o təməli də ümummilli liderimiz Heydər Əliyev atıb”.

Müasir dünyada hazırlanan kadrların səviyyəsi, sadəcə əldə edilən bilik, bacarıq və vərdişlərlə ölçülmür. Müasir kadrlara tələb edilən bilik, bacarıq və vərdişləri təhsil vasitəsilə vermək mümkün olsa da, insanın mədəni səviyyəsi, insani keyfiyyətləri təhsil müəssisələrində əldə olunmur. Kadrlar biliyin yarısını təhsil ocağından kənarda alırlar: “Qloballaşan dünyada gələcəyimiz məhz hansı tip insanı formalaşdırmağımızdan asılı olacaq. Ona görə də dövlət təhsilə xüsusi əhəmiyyət verir. Bütün strateji proqramlarda təhsil strateji xətt təşkil edir”.

Rəqəmsal texnologiyalar inkişaf edir. Nəticədə dünyada tələblər dəyişir. Hər il ehtiyac azalan ixtisaslar tələbat artan tamamilə yeni ixtisaslar əvəz edir. Bu halda təhsilin qarşısında sual ortaya çıxır. Bəs, kadrlar necə hazırlanmalıdır ki, sürətlə dəyişən tələbə cavab verə bilsinlər: “Bakı Dövlət Universitetinin 100 illik yubileyində Prezident İlham Əliyev də çıxışında xüsusi vurğuladı ki, təhsilin qarşısında əsas vəzifələrdən biri ixtisaslı mütəxəssislərin hazırlanmasıdır. 10 il sonra hansı ixtisaslara ehtiyac olacağını öncədən görmək çətindir. Belə bir fikir irəli sürülür ki, gələcəkdə müasir texnologiyalarla bağlı ixtisaslar tələb olunacaq. Ən çox ehtiyac duyulacaq ixtisaslardan biri də fizioterapevtlər olacaq. Bu da günümüzün ortaya çıxardığı problemin nəticəsidir. Oturaq iş, müasir texnologiyalardan istifadə bu ixtisası aktuallaşdıracaq. Bu gün 4 milyard 400 milyon insan internet istifadəçisidir. 2 milyard 200 milyon insan facebookdadır. Bu çox böyük problemdir. Bu problem hamını, o cümlədən təhsili düşündürür”.

F.Qurbanovun fikrincə, təhsil sisteminin qarşısında duran əsas vəzifələrdən biri biliklə yanaşı, informasiyalardan düzgün istifadə bacarığını formalaşdırmaqdır. Əhalisi hər gün 10 saat internetdə vaxt keçirən ölkələr var. Gəlin görək, onların hamısı bu imkandan səmərəli istifadə edirmi? Xüsusən, uşaqlar müasir texnologiyadan faydalanır. Ancaq bu informasiyadan necə istifadə etdikləri çox önəmlidir: “Qarşımızda duran və ölkə Prezidentinin də səsləndirdiyi əsas vəzifə budur. Təhsil Nazirliyi bununla bağlı tədbirlər planı hazırlayıb. Bu istiqamətdə hansı işləri görməliyik ki, formalaşdırdığımız gənclər ölkənin davamlı inkişafını təmin etsinlər”.

“Dəyirmi masa”da Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri - YUNESKO üzrə Azərbaycan Milli Komissiyasının baş katibi Elnur Sultanov, Azərbaycan Respublikası Mədəniyyət nazirinin müavini Sevda Məmmədəliyeva, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər nazirinin müavini Rauf Hacıyev, Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar nazirinin müavini Elmir Vəlizadə, Azərbaycan Respublikası Gənclər və İdman nazirinin müavini İntiqam Babayev ölkənin inkişafı, bu inkişafın təmin olunmasına yol açan texnologiyalar, ölkə başçısının gerçəkləşdirdiyi islahatlar barədə fikirlərini iştirakçıların diqqətinə çatdırıblar.

# Oxu sahəsində qızlar, riyaziyyatda isə oğlanlar üstündür




⇦ Əvvəli səh.1

Oruc MUSTAFAYEV

Mətbuat konfransında beynəlxalq ikili diplom proqramlarının həyata keçiriləcəyi xarici tərəfdaş ali təhsil müəssisələrinin, ixtisas proqramlarının və təhsil səviyyələrinin seçim meyarları, proqramın maliyyələşdirilməsi qaydaları media nümayəndələrinin nəzərinə çatdırılıb.

Daha sonra nazirliyin Təhsilin inkişafı proqramları şöbəsinin müdiri Emin Əmrullayev PISA proqramı və onun 2018-ci ildə keçirilmiş tədqiqatının nəticələrinə dair ümumi məlumat verib. PISA qiymətləndirməsi İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) tərəfindən 3 ildən bir keçirilir: “PISA 15 yaşlı şagirdlərin oxu, riyaziyyat və təbiət elmləri üzrə məktəbdə qazandığı biliklərdən həyatda, məişətdə qarşılaşdıqları problemləri həll etmək üçün istifadə etmək bacarığını ölçür. 2018-ci ildə PISA tədqiqatı ölkəmizdə Bakı şəhərinin 197 məktəbini əhatə edib. Ümumilikdə ümumtəhsil məktəblərimizdən 6827 nəfər 15 yaşlı şagird tədqiqata cəlb olunub. Şagirdlərimizin riyaziyyat üzrə orta göstəricisi 420 bal, oxu üzrə 389 bal, təbiət elmləri üzrə isə 398 bal təşkil edib. Adətən ən yüksək nəticələri Şərqi Asiya ölkələri və inkişaf etmiş ölkələr əldə edir. Azərbaycanın riyaziyyat üzrə nəticələri Qazaxıstan, Gürcüstan, Braziliya və b. ölkələrlə müqayisədə yüksəkdir”. E.Əmrullayev növbəti PISA tədqiqatlarının 2021-ci ildə keçiriləcəyini vurğulayıb: “Hər ölkə bu tədqiqatlarda iştirak edə bilmir. PISA-da iştirak edən ölkələrdən müəyyən bacarıq və səylər tələb edilir”. E.Əmrullayev əlavə edib ki, müəyyən fasilədən sonra ölkəmiz ilk dəfə olaraq PISA-da elektron qaydada iştirak edib: “Azərbaycan əvvəllər də PISA-da iştirak edib. PISA-nın mahiyyəti ölkənin hansı yerdə qərarlaşması deyil. Əlbəttə, yaxşı nəticə olarsa, bu, müsbət xəbərdir”.

Şöbə müdiri 2020-ci ildə PISA tədqiqatlarının nəticələrindən ibarət hesabat təqdim ediləcəyini də diqqətə çatdırıb: “PISA tədqiqatlarına əsasən, ilkin olaraq deyə bilərik ki, oxu sahəsində daha çox qızlar, riyaziyyat sahəsində isə oğlanlar yüksək nəticə göstəriblər. Bundan başqa, “30 yaşınızda özünüzü harada görürsünüz?” sualına cavab olaraq oğlanlar daha çox mühəndislik, IT, qızlar isə həkimliyi, təbabət sahələrini seçirlər. PISA tədqiqatlarının təhlili göstərir ki, təhsilin inkişafında nəticələrimiz əvvəlki illərə baxanda daha yaxşıdır. Bugünkü 15 yaşlı şagirdlər təxminən 10 il əvvəl məktəbə getmiş uşaqlardır. Yəni, bu gün təhsillə bağlı görülən işlərin təsirini hələ PISA təhlillərində görmürük, bu nəticələr gələcək illərdə özünü büruzə verəcək”.

E.Əmrullayev məktəblərdə müəllimlərin şagirdlərə qarşı emosional münasibətinin də yüksək nəticələr əldə edilməsinə təsir etdiyini deyib: “Bakı məktəblərinin göstəriciləri birbirindən xüsusilə fərqlənmir. Digər ölkələrə nəzər yetirdikdə görürük ki, daha çox hər hansı bir şəhərdə bir-iki məktəb fərqlənir. Bizdə bu cür fərqlilik müəyyən edilməyib, daha çox sinifdaxili fərqliliklər nəzərə çarpır”.

# Avropa İttifaqının “Təhsilə Dəstək Proqramı”nın icrasına dair seminar



Azərbaycanda təhsil və təlimlə bağlı inkişaf prosesləri- Avropa İttifaqının “Təhsilə Dəstək Proqramı”nın icrası, o cümlədən “Turin prosesi 2018-2020”-nin nəticələrinin təqdim olunması və təcrübələrin paylaşılmasına dair seminar keçirilib.

Seminarın keçirilməsində əsas məqsəd Peşə Təhsili və Təlimi (PTT) müəssisələrinin dəyərini təbliğ etmək, qrantların təmini və gələcək tədbirlərlə bağlı məsələlərin müzakirə olunmasıdır.

Seminarda Təhsil Nazirliyi, Peşə Təhsili üzrə Dövlət Agentliyi və digər dövlət qurumları, PTT məktəbləri, fəaliyyət qrantlarını təmin edən müəssisələr, donorlar, Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyi və Avropa Təlim Fondunun (ETF) nümayəndələri iştirak ediblər.

Tədbirdə “Turin prosesi 2018-2020”-nin nəticələri müzakirə olunub. Həmçinin, milli hesabatlar və ETF-nin qiymətləndirmə barədə hesabatlarının təqdimatı ilə yanaşı, prosesin nəticələrini təqdim və müzakirə etmək, tövsiyələr əsasında görüləcək tədbirləri müəyyən etmək, Azərbaycanda PTT sektoruna Avropa İttifaqının cari və gələcək yardımlarının ayrılması seminarın prioritet mövzularından olub.

Tədbirdə Təhsil nazirinin müavini İdris İsayev, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Məşğulluq siyasəti və demoqrafiya şöbəsinin müdiri Elnur Süleymanov, Azərbaycan Sahibkarlar Konfederasiyasının Baş katibinin müavini Fuad Hümbətov, Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Kestutis Yankauskas çıxış edərək qeyd edilən mövzular ətrafında fikir mübadiləsi aparıblar.

Bildirilib ki, Avropa İttifaqının 2014-cü il üzrə İllik Fəaliyyət Proqramında Azərbaycanın təhsil və təlim sektorunun inkişafına dəstək məqsədilə maliyyə yardımı ayrılıb. Yardım çərçivəsində PTT sahəsində islahatların aparılması, Milli Kvalifikasiyalar Çərçivəsi, o cümlədən çoxfunksiyalı təlim mərkəzlərinin müasirləşdirilməsi üçün qrant mexanizminin yaradılması və həyata keçirilməsinə köməklik göstərilməsi nəzərdə tutulub.

## Qadın hüquqları mövzusunda inşa müsabiqəsinə start verilir

“Lider Qadınlar” İctimai Birliyinin “Qadın haqları milli dəyərlər və milli prioritetlər kontekstində” layihəsi çərçivəsində tədbir keçirilib.

Tədbirdə çıxış edən “Lider Qadınlar” İctimai Birliyinin sədri Məlahət İbrahimqızı bildirib ki, 2019-2020-ci illər beynəlxalq ictimaiyyət tərəfindən dünya qadın hərəkatına, xüsusilə qadın hüquqlarına, ana sağlamlığına, qadınlara qarşı ayrı-seçkilik və zorakılığın ləğv olunmasına dair BMT sənədlərinin qəbulu və əlamətdar tarixi tədbirlərin keçirilməsinin yubiley illəridir. Qeyd edib ki, 25 il əvvəl Pekində qəbul olunmuş sənədlərdə 12 strategiya müəyyən olunub. Onlar yoxsulluğun aradan qaldırılması, qaçqın və köçkünlərin sosial problemlərinin həlli üçün xüsusi önəm daşıyır. Ötən dövr ərzində bu iki məsələnin aradan qaldırılması istiqamətində Azərbaycanda ciddi işlər görülüb.

Bildirilib ki, Azərbaycanda qadın hüquqları mövzusunda ümumrespublika inşa müsabiqəsinə start verilir. Müsabiqə respublika üzrə tam orta məktəblərin 10 və 11-ci sinifləri arasında keçiriləcək. İnşayazı müsabiqəsinin dekabrın 7-də keçirilməsi planlaşdırılır. Layihənin nəticələrinin təqdimatı 2020-ci ilin mart ayında olacaq.

Sonra çıxış edən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova layihənin əhəmiyyətindən danışıb.

BMT-nin Azərbaycandakı Rezident Əlaqələndiricisi Qulam İshaqzai bildirib ki, qadın problemlərinin araşdırılması, ictimaiyyətə açıqlanması baxımından bu layihə mühüm əhəmiyyət kəsb edir. O əlavə edib ki, son illərdə Azərbaycanda bu istiqamətdə mühüm islahatlar həyata keçirilir.

Tədbirdə çıxış edən Təhsil nazirinin müavini Məhəbbət Vəliyeva cəmiyyətin formalaşmasında qadınların rolundan danışıb. O bildirib ki, bu işdə təhsilin, elmin müstəsna yeri var. “İlk dəfə müsəlman Şərqində qızlar üçün məktəb məhz Azərbaycanda H.Z.Tağıyevin təşəbbüsü ilə açılıb. Bu gün də Azərbaycan qadınları bütün sahələrdə uğurla təmsil olunurlar. Təhsil gələcəyin təminatıdır. Qızların təhsili, dünya görüşlü olması gələcəyimizin təminatıdır. Son illərin statistikası göstərir ki, qızların sayı nəinki humanitar, həm də texniki sahələrdə artır. Onlar xaricdə təhsil alırlar. Beynəlxalq arenada ölkəmizi layiqincə təmsil edirlər. Xalqımızın milli-mənəvi dəyərlərinin qorunmasında fəallıq göstərirlər”, - deyə nazir müavini vurğulayıb.

Məhəbbət Vəliyeva inşa müsabiqəsinin əhəmiyyətindən danışıb. O bildirib ki, müsabiqədə 30 mindən çox şagirdin iştirakı gözlənilir.

AZƏRTAC

# Beyləqan, Xocavənd, Cəbrayıl və Füzuli rayon təhsil işçiləri ilə görüş

Dekabrın 4-də Beyləqan rayon Heydər Əliyev Mərkəzində Beyləqan, Xocavənd, Cəbrayıl və Füzuli rayon təhsil şöbələrinin fəaliyyətinə dair hesabat tədbiri keçirilib.

Tədbirdə Təhsil nazirinin müavini Məhəbbət Vəliyeva, Beyləqan, Xocavənd, Cəbrayıl və Füzuli rayon təhsil şöbələrinin müdirləri, təhsil işçiləri və məktəb direktorları iştirak ediblər.

Öncə qonaqlar ulu öndərin Heydər Əliyev Mərkəzinin qarşısında ucaldılmış abidəsini ziyarət edib, önünə gül dəstələri qoyublar.

Tədbirdə Beyləqan, Xocavənd, Cəbrayıl və Füzuli təhsil şöbələri müdirlərinin dərs ilinin prioritet fəaliyyət istiqamətləri üzrə Təhsil Nazirliyinin müvafiq əmrlərinin icra vəziyyəti ilə əlaqədar hesabat məruzələri dinlənilib.

Daha sonra Təhsil nazirinin müavini Məhəbbət Vəliyeva çıxış edərək hesabatlar barədə fikrini bildirib. Nazir müavini təhsil sahəsində həyata keçirilən islahatların uğurlu nəticələrindən, qarşıda həllini gözləyən məsələlərdən danışıb. Məhəbbət Vəliyeva deyib ki, son illər ölkəmizdə müasir standartlara tam cavab verən məktəb binaları inşa edilir, təhsil müəssisələrinin maddi-texniki bazası möhkəmləndirilir, pedaqoji işçilərin sosial rifahı yaxşılaşdırılır.

Sonra qeyd olunan rayonların məktəb direktorları ilə görüş keçirilib. Görüşdə nazir müavini Məhəbbət Vəliyeva təhsildə keyfiyyətin yüksəldilməsi, fənlərin tədrisi, rəhbərlik və nəzarət məsələlərindən söz açaraq təhsil sistemində yeni yanaşma metodlarından və idarəetmənin təkmilləşdirilməsindən danışıb.

Çıxışının sonunda Məhəbbət Vəliyeva təhsil işçilərinə uğurlar arzulayıb.

Tədbirdə xüsusi fəaliyyətinə görə seçilən təhsil işçiləri təltif edilib.

Sonda tədbir iştirakçılarının təklifləri dinlənilib və suallar cavablandırılıb.

Nazir müavini Məhəbbət Vəliyeva həmçinin Beyləqan şəhəri 1 nömrəli tam orta məktəbdə yaradılmış şəraitlə tanış olub, müəllim-şagird kollektivi ilə görüşüb, dərs prosesini izləyib.

Dekabrın 5-də Təhsil nazirinin müavini Məhəbbət Vəliyeva Beyləqan rayonuna səfəri çərçivəsində təhsilin vəziyyəti və tədris prosesi ilə yaxından tanış olmaq məqsədilə 8 nömrəli tam orta məktəbdə olub.

Nazir müavini məktəbin müəllimləri ilə görüşüb, eyni zamanda təhsil ocağında yaradılmış şəraitlə tanış olub və dərs prosesini izləyib. Bildirilib ki, müasir sinif otaqlarının olduğu məktəbdə təlim-tədris prosesinin yüksək səviyyədə aparılması üçün hər cür şərait yaradılıb. Məktəbdə əyani vəsaitlə təchiz olunan fənn laboratoriyaları qurulub. Xarici dil otaqlarının, kimya, fizika və biologiya üzrə fənn laboratoriyalarının olduğu məktəbdə informatika kabineti də kompüter avadanlığı ilə təchiz edilib. Məktəbin kitabxanası dərsliklər və dərs vəsaitləri ilə təmin olunaraq şagirdlərin istifadəsinə verilib. İdman zalında da müasir qurğular quraşdırılıb.

Daha sonra nazir müavini Beyləqan rayonu I Aşıqlı kənd tam orta məktəbinə də baş çəkib. Müəllim və şagirdlərlə söhbət aparılıb, tədris prosesində interaktiv təlim metodlarından istifadənin vacibliyi və əhəmiyyəti diqqətə çatdırılıb.

Məktəb rəhbərliyi və müəllimlərlə keçirilən görüşdə məktəbin fəaliyyətinin yaxşılaşdırılması ilə bağlı məsələlər diqqətə çatdırılıb və tövsiyələr verilib. Görüş zamanı təhsilin keyfiyyətinin yüksəldilməsi, inkişafı üçün atıla biləcək ən uğurlu addımlar da müzakirə edilib.

Görüşdə iştirakçıların rəyləri dinlənilib, sualları cavablandırılıb.

# Nazir müavini xüsusi tipli internat məktəblərində olub



3 dekabr - Beynəlxalq Əlillər Günü münasibətilə Bakı şəhərində yerləşən Sağlamlıq imkanları məhdud, valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün 4 nömrəli Respublika xüsusi internat məktəbində tədbir keçirilib.

Tədbirdə iştirak edən Təhsil nazirinin müavini Məhəbbət Vəliyeva məktəbin müəllim və şagird kollektivi ilə görüşüb, eyni zamanda təhsil ocağının şəraiti ilə tanış olub və dərs prosesini izləyib. Məhəbbət Vəliyeva tədris prosesində interaktiv təlim metodlarından istifadənin vacibliyi və əhəmiyyətini diqqətə çatdırıb.

Nazir müavininə məlumat verilib ki, sözügedən təhsil müəssisəsi 1967-ci ildən fəaliyyət göstərir. Hazırda internat məktəbində 18 sinif komplektində 112 nəfər şagird təlim-tərbiyə alır. Xüsusi siniflərdə təhsil alan sağlamlıq imkanları məhdud şagirdlər on illik təhsil müddətini başa vurduqdan sonra xüsusi təhsil haqqında şəhadətnamə alırlar. Xüsusi təhsil proqramları ilə yanaşı onlar məktəbin tədris emalatxanalarında tikiş, naxış salma, xalçaçılıq və dulusçuluq üzrə peşələrə yiyələnirlər. Müəssisənin nəzdində ayrıca iki mərtəbəli korpusda yerləşən reabilitasiya mərkəzi fəaliyyət göstərir. Mərkəzdə 139 nəfər uşaq reabilitasiya xidmətinə cəlb olunub.

İnternat məktəbində uşaqların təlim-tərbiyəsi ilə 55 nəfərdən ibarət pedaqoji heyət məşğul olur.

***

Nazir müavini həmçinin Sumqayıt şəhəri İnteqrasiya təlimli internat tipli gimnaziyada 3 dekabr - Beynəlxalq Əlillər Günü münasibətilə keçirilən tədbirdə də iştirak edib.

Məhəbbət Vəliyeva əvvəlcə şagirdlərin əl işlərindən təşkil olunmuş sərgi ilə tanış olub.

Tədbir çərçivəsində şagirdlərin ifasında maraqlı səhnələr, oyun və rəqslər nümayiş olunub, musiqi, şeir və nəğmələr səsləndirilib.

Nazir müavini internat məktəbində yaradılmış şəraitlə də tanış olub. Bildirilib ki, təhsil müəssisəsi 1996-cı ildən fəaliyyət göstərir. 2010-cu ildən məktəbdə ümumtəhsil siniflər də fəaliyyətə başlayıb. Hazırda internat məktəbində İnteqrasiya təlimli internat tipli gimnaziya 10 ümumtəhsil sinif üzrə-179 nəfər, 29 xüsusi sinif üzrə 266 nəfər şagird təlim-tərbiyə alır. İnternat məktəbində uşaqların təlim-tərbiyəsi ilə 115 nəfərdən ibarət pedaqoji heyət məşğul olur.

Sonda xatirə fotosu çəkdirilib.

# İnklüziv təhsillə inklüziv cəmiyyətə

## Bakıda əlilliyi olan və olmayan uşaqlar dünyaya səsləndi: "Fərqliyik, bərabərik!"



⇦ Əvvəli səh.1

Ruhiyyə DAŞSALAHLI

Ancaq böyüyəndə biznesmen olacağam. İstəyirəm ki, çoxlu marketlərim olsun".

Nənəsi deyir ki, Rəsulu heç evdə qapalı vəziyyətdə saxlamayıblar: "Mütəmadi olaraq onu evdən çıxartdıq. Hər yerə apardıq. Məktəb yaşı çatanda evdə təhsilə başladı. Növbəti il ondan balaca qardaşı məktəbə gedəndə həvəslənib o da məktəbdə təhsil almaq istədi. Biz də onu ikinci sinifdən məktəbə qoyduq".

Məktəbə israrla getdiyi kimi, idmanla bağlı taleyini də özü dəyişib. Rəsulun idman həyatı da maraqlı başlayıb. Nənəsi danışır: "2017-ci ildə Bakıda İslam Oyunları keçirilirdi. Rəsul İlham Zəkiyevə baxmaq istəyirdi. Biz də onun istəyinə uyğun olaraq bilet alıb getdik. Orada Azərbaycan Milli Paralimpiya Komitəsinin Baş katibi Kamal Məmmədovun diqqətini cəlb etdi. O, Rəsulun idmana marağını gördü. Onu bir neçə idman növü ilə tanış etdilər. Rəsul ağırlıqqaldırmanı seçdi".

### Fərqliyik, bərabərik

Rəsul pəhləvan Beynəlxalq Əlillər Gününə həsr olunan "Fərqliyik, bərabərik" uşaq festivalının səhnəsindən dünyaya müasir çağırışlarla səsləndi. Səsinə səs verəcək minlərlə insan olduğuna inanaraq.

Dekabrın 3-də dünya Beynəlxalq Əlillər Gününü qeyd edirdi. Xalqlar əlilliyi olan şəxslərin həyatını rahatlaşdırmaq, onlarla digər insanlar arasına qoyduqları fərqi aradan qaldırmaq istiqamətində il ərzində gördükləri fəaliyyətə nəzər saldılar. Azərbaycanda da fərqliliklər nəzərə alınmadan hamı bir araya gəldi. Əlilliyi olan şəxslərin cəmiyyətə inteqrasiyasına, əlilliyi olan və olmayan uşaqların birgə fəaliyyətinin təbliğinə yönələn bir festival düzənlədilər. Məqsəd isə fərqli uşaqların istedad və qabiliyyətlərini üzə çıxarmaq, inklüziv cəmiyyətin yaradılmasında inklüziv təhsilin vacibliyini vurğulamaq idi. Bu məqsəd üçün Heydər Əliyev Fondu, "Regional İnkişaf" İctimai Birliyi, Heydər Əliyev Mərkəzi, Təhsil Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Avropa İttifaqının Azərbaycandakı Nümayəndəliyi, BMT-nin Uşaq Fondu (UNİCEF) və BMT-nin İnkişaf Proqramı Heydər Əliyev Mərkəzində təşkil edilən həmin festivalda fərqlilikləri aradan qaldıracaq bərabərliyə imza atdılar.

### Festivalda bərabərliyə xidmət edən zonalar

Rəngli görüntülərin ortaya çıxdığı festivalın əyləncəli proqramı vardı. Festival çərçivəsində ayrı-ayrı mərkəzlər, birliklər zonalar yaradaraq uşaqların diqqətini özlərinə cəlb etməyə çalışdılar. İncəsənət və Sənətkarlıq üzrə İnklüziv Peşə Təlimi Mərkəzi, "Sevimli bala" elm mərkəzi, 1 və 3 nömrəli Uşaq-Gənclər İnkişaf mərkəzləri, Daun Sindromlu şəxslərin Reablitasiya Mərkəzi, Azərbaycan Stolüstü Tennis Federsiyası uşaqların maraqlarını əhatə edən, dünyagörüşlərini genişləndirən müxtəlif zonalar yaratmışdılar.

### Musiqi uşaqları bu zonaya çağırır

"Bumblebee Play/Prescool" uşaq inkişaf mərkəzinin zonasında canlanma vardı. Marketinq meneceri Mehriban Nəzərova deyir ki, onlar müxtəlif musiqi alətlərindən istifadə edərək festival iştirakçısı olan uşaqları musiqi dərsinə dəvət edirlər. Bu dəvət üçün elə forma seçirlər ki, eyni vaxtda həm sağlamlıq imkanı məhdud, həm də normal fiziki inkişafı olan uşaqlar iştirak edə bilsin.

BMT-nin İnkişaf Proqramının Avropa İttifaqının maliyyə dəstəyi ilə İçərişəhərdə yaratdığı İncəsənət və Sənətkarlıq üzrə İnklüziv Peşə Təlimi Mərkəzi tərəfindən dulusçuluq və vitraj guşəsi təşkil olunub. Guşədə sentyabrın 15-dən dərsləri başlayan uşaqların əl işləri nümayiş olunur. Bu peşələrlə maraqlanan hər kəsə özünü sınamaq üçün şərait yaradılır.

### Hərəkət edən robotlar "gəl-gəl" deyir

3 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzinin Robototexnika dərnəyinin müəllimi Jalə Dadaşova deyir ki, festival iştirakçısı olan uşaqlar onların təşkil etdiyi "STEM və Robototexnika" zonasında əyləncəli vaxt keçirə bilərlər: "Dərnəyimizdə 3-14 yaşlı uşaqlar məşğul olurlar. Uşaqlarımız yaşından asılı olaraq 2d, 3d modellər düzəldir, həmin modelləri hərəkətə gətirirlər. Motorlarla, proqramlaşdırma üsulu ilə, günəş enerjisinin təsiri ilə hərəkət edən robotlarımız var. Dərslərimiz çox maraqlı keçir, uşaqların xoşuna gəlir".

Jalə müəllim deyir ki, dərnəkdə danışma məhdudiyyəti olan və əl motorikası zəif uşaqlar var. Robototexnika həm də əl motorikasını inkişaf etdirdiyindən, festivalda bu zona da diqqəti çəkir.

### Tennis masası heç boşalmır

Azərbaycan Stolüstü Tennis Federasiyasının yaratdığı zonada tennis masası boş qalmır. 11 nömrəli Gənclər İnkişaf Məktəbində məşqçi-müəllim olan Ruqiyyə Qubuşova, sadəcə festivalda deyil, elə hər zaman fərq qoymadan bütün uşaqlarla işlədiyini deyir: "Uşaqlarla bir yerdə məşğul oluruq. Bunun üçün şəraitimiz təmin olunub. Məşqlərdə uşaqların bir-birinə kömək etməsi əldə etdiyimiz ən böyük nəticələrdəndir. Paralimpiyaçı uşaqlarla nəticə bir az gec əldə olunsa da, qazandıqları uğurlarına görə onlar digər uşaqlardan fərqlənmirlər".

Ruqiyyə müəllimin davamçısı hesab etdiyi Ürfan Əsədli tennis masasında rəqiblərini dəyişir. Bakı Humanitar Kollecində təhsil alan Ürfan 5 yaşından tennislə məşğul olur. Bu il məzun olub məşqçiliyə başlayacaq.

### Onlar bacardıqlarını nümayiş etdirdilər

Festival çərçivəsində əlilliyi olan və olmayan uşaqların iştirakı ilə müxtəlif əyləncəli və maarifləndirici proqramlar, əl işlərindən ibarət sərgi təqdim olundu. Qorxmaz Mustafayevin, Rəşad Məmmədovun, Əsli Zeynalovanın, Ədalət İsmayılovun, Aynur Kərimovanın, Xədicə Baxşıyevanın, Nərgiz Əhmədovanın, Ülvi Musayevin və başqalarının əl işləri maraqla qarşılandı.

"Regional İnkişaf" İctimai Birliyi və BMT-nin Uşaq Fondunun əlilliyi olan gənclərin həyat hekayələrindən və inklüziv təhsilin əhəmiyyətindən bəhs edən videoçarxı nümayiş etdirildi.

13 yaşlı Rəsul Zəkiyevin yer aldığı, ƏSA teatrının hazırladığı "Bərabərik!" adlı inklüziv səhnəcikdən sonra "Danceability Azerbaijan" və Daun Sindromlu şəxslərin Reabilitasiya Mərkəzinin müxtəlif rəqs nömrələri izlənildi. 3 saylı Uşaq-Gənclər İnkişaf Mərkəzinin eşitmə və danışma əlilliyi olan "Uşaq teatrı" və "Vokal" dərnəyi üzvlərinin ifasında "Dostluq" mahnısı təqdim edildi.

Bir neçə saat davam edən festivaldan yaddaşlarda bərabər keçən fərqli anlar qaldı.

# Xırdalan şəhərində vətəndaşlar qəbul ediləcək

### Abşeron, Zəngilan və Şuşa rayon sakinlərinin nəzərinə!

Təhsil nazirinin müavini Firudin Qurbanov 13 dekabr 2019-cu il tarixində, saat 10:00-da Xırdalan şəhərindəki Abşeron Rayon Mədəniyyət Mərkəzində 2019-cu ilin dekabr ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, Abşeron, Zəngilan və Şuşa rayon sakinlərini qəbul edəcək. Qəbulda Abşeron rayonunda müvəqqəti məskunlaşmış məcburi köçkünlər də iştirak edə bilərlər.

Qəbula gəlmək istəyən vətəndaşlar 5-11 dekabr (saat 18:00-dək) 2019-cu il tarixlərində Təhsil Nazirliyinin Telefon Məlumat Mərkəzinin 146-1 nömrəli telefonuna ("Qaynar xətt" xidməti) zəng etməklə və ya nazirliyin rəsmi saytının "Vətəndaşların qəbulu" bölməsinə daxil olmaqla *(http://edu.gov.az/az/contacts/request)* elektron qeydiyyatdan keçə bilərlər.

Qeydiyyatdan keçmiş vətəndaşlardan xahiş olunur ki, qəbula gələrkən aidiyyəti məsələləri dolğun ifadə edən ərizə ilə müraciət etsinlər.

# Təhsil Nazirliyi yanında İctimai Şuranın Fəaliyyət Planı təqdim olunub

Samirə KƏRİMOVA

Dekabrın 3-də Azərbaycan Texniki Universitetində Təhsil Nazirliyi yanında İctimai Şuranın 2019-2020-ci illər üzrə Fəaliyyət Planının təqdimatına həsr olunan mətbuat konfransı keçirilib.

Konfransda İctimai Şuranın rəhbərliyi və üzvləri, təhsil ekspertləri, KİV nümayəndələri iştirak ediblər.

Tədbirdə Təhsil Nazirliyi yanında İctimai Şuranın sədri, professor Şahlar Əsgərov çıxış edərək bu qurumun yaradılmasının əhəmiyyətindən, görüləcək və həyata keçirilməsi nəzərdə tutulan tədbirlərdən danışıb.Qeyd olunub ki, İctimai Şura təhsil sahəsində müxtəlif məsələlərin müzakirəsi üçün məsləhətləşmələr təşkil edən, bu sahədə dövlət siyasətinin həyata keçirilməsi ilə bağlı nazirliyə təkliflər verən və qanunvericiliklə müəyyən edilmiş digər hüquqlara malik olan məşvərətçi qurumdur.

İctimai Şuranın məsul katibi İlqar Orucov Şuranın 2019-2020-ci illər üzrə Fəaliyyət Planı barədə media nümayəndələrinə geniş məlumat verib. Bildirilib ki, Təhsil Nazirliyi yanında İctimai Şuranın 2019-2020-ci illər üzrə Fəaliyyət Planı şura üzvlərinin iştirakı ilə hazırlanıb və şuranın iclasında geniş müzakirə olunaraq qəbul edilib. Fəaliyyət Planı şuranın cari tədris ilində icra edəcəyi işləri özündə əks etdirir. Beş istiqaməti əhatə edən sənəddə hər bir istiqamət üzrə planlaşdırılan fəaliyyət növləri müəyyənləşdirilib. Burada Təhsil Nazirliyinin və onun qurumlarının fəaliyyətinə ictimai nəzarətin həyata keçirilməsi nəzərdə tutulur. Fəaliyyət Planında, eyni zamanda Təhsil Nazirliyi ilə ictimaiyyət arasında səmərəli qarşılıqlı fəaliyyətin təşkili, adıçəkilən qurum və onun yerli idarəetmə orqanlarının fəaliyyətində aşkarlığın, şəffaflığın təmin olunması, təhsil siyasətinin formalaşması, həyata keçirilməsi və qərarların qəbulu zamanı ictimai rəyin, vətəndaşların maraqlarının öyrənilməsi, təhsil subyektlərinin qanuni maraqlarının təmin və müdafiə edilməsi məsələləri, birgə əməkdaşlıq, əlaqələndirmə tədbirləri öz əksini tapıb.

Geniş təqdimatdan sonra konfransda müzakirələr aparılıb. İctimai Şuranın üzvləri - "XXI əsr Təhsil Mərkəzi" İctimai Birliyinin sədri, fəlsəfə üzrə fəlsəfə doktoru Etibar Əliyev, təhsil eksperti Nadir İsrafilov, Respublika Təhsil Şurasının sədri, professor Hikmət Əlizadə və Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin sədr müavini Mirzə Cəfərzadə jurnalistləri maraqlandıran sualları cavablandırıblar.

Qeyd edək ki, Təhsil Nazirliyi yanında İctimai Şura Təhsil naziri Ceyhun Bayramovun 11 iyul 2019-cu il tarixli əmrinə əsasən yaradılıb. 11 üzvü olan Şuranın yaradılmasında əsas məqsəd nazirliyin fəaliyyətində şəffaflığı artırmaq, eyni zamanda təhsil sahəsində ictimaiyyətlə qarşılıqlı fəaliyyəti gücləndirməkdir.

# Qocaman təhsil ocağı

## Azərbaycan Dövlət Pedaqoji Kollecinin 100 illik tarixi yoluna qısa nəzər

**İsrayil İSGƏNDƏROV,**
*ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin direktoru, riyaziyyat üzrə fəlsəfə doktoru, dosent*



Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin yarandığı ilk illərdə ölkəmizdə orta ixtisas təhsilinin yenidən qurulmasına birinci növbədə milli müəllim kadrlarının hazırlanması ilə başlandı. Çünki ümumtəhsil məktəbləri şəbəkəsinin sürətlə genişlənməsi, təhsilə cəlb olunan şagirdlərin sayının artması genişmiqyaslı milli müəllim kadrlarının hazırlanmasını tələb edirdi. Azərbaycan dilində dərs deməyi bacaran müəllimlərə böyük ehtiyac var idi.

### Bakı Kişi Müəllimlər Seminariyası açıldı

Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin maarif, təhsil, elm və mədəniyyət sahəsində apardığı siyasətin reallaşdırdığı təxirəsalınmaz tədbirlərin və keçirilməsi nəzərdə tutulan islahatların əsas, ən vacib istiqamətlərindən biri ölkəmizdə ali və orta ixtisas təhsili məktəbləri şəbəkəsinin qurulması, həmçinin milli müəllim kadrları yetişdirmək məqsədilə yeni darülmüəllimlərin (kişi müəllim seminariyası) və darülmüəllimatların (qadın müəllim seminariyası) yaradılması idi.

Həmin ərəfədə Bakı Kişi Müəllimlər Seminariyası açıldı və görkəmli ziyalı Rəşid bəy Əfəndiyev müdir təyin edildi. Az sonra bu seminariyaya Qori Müəllimlər Seminariyasının məzunu Pənah Qasımov rəhbərlik etdi. O, qısa bir müddətdə mütərəqqi ideyalı, demokratik fikirli pedaqoqları öz ətrafına topladı. Görkəmli və tanınmış müəllimlərdən Soltan Məcid Qənizadəni, Hüseyn Cavidi, Abdulla Şaiqi, Azad bəy Əmirovu, Səməd bəy Acalovu, Əli bəy Qasımzadəni, Nuruş Şahsuvarovu, Məhəmməd Abdullayevi, Əhməd Kərədi Zəkuzadəni, Camo Cəbrayılbəylini, Qafur Rəşadı, Sultanmurad Əliyevi və başqalarını işə dəvət etdi. Seminariyada dövrün görkəmli ziyalıları - Üzeyir bəy Hacıbəyli və Müslüm Maqomayev də dərs deyirdilər.

### İlk doqquz məzun

Bu səriştəli, güclü kollektivin köməyi ilə məktəbdə nümunəvi nizam-intizam yarandı və təlim-tərbiyə işlərinin səmərəsi yüksəldi. Tezliklə nümunəvi maarif ocağı kimi məktəbin şöhrəti qonşu respublikalara da yayıldı.Yüksək keyfiyyətli pedaqoji kadrlar hazırlamaq məqsədilə tələbələrin bilik və hazırlıq səviyyəsi Pənah Qasımovun sədrliyi ilə işləyən xüsusi komissiya tərəfindən yoxlandı. Komissiya məktəbdəki 90-a qədər tələbədən yalnız 40 nəfərini təhsilini davam etdirməyə layiq gördü. Həmin 40 nəfərdən dördüncü kursda cəmi 9 tələbə qaldı ki, onlar da 1922/1923-cü buraxılış ilində məktəbin ilk məzunları oldular.

Respublikamızın tanınmış alimlərindən Mirəli Axundov, Məmməd Şıxlı, AMEA-nın Əlyazmaları Fondunda baş elmi işçi vəzifəsində işləmiş şair Fazil Seyidov, uzun müddət Gəncə Şəhər Maarif Şöbəsinin müdiri olmuş, şəxsiyyətə pərəstiş dövrünün qurbanlarından biri Allahverdi Namazov, Bəkir Əfəndiyev və başqaları məktəbin ilk məzunları oldular. Həmin 9 məzun təyinatla Zaqatala, Cavanşir (Cəbrayıl) və Şuşa qəzalarına göndərildi.

Məktəbi ikinci buraxılışda 24, üçüncü buraxılışda 28, dördüncü buraxılışda 56 gənc bitirdi. Onlardan biri Türküstana (Orta Asiya), ikisi Dağıstana, qalanları isə Azərbaycanın qəzalarına işləməyə getdilər.

### Bakıda qadın seminariyası yaradıldı

1920-ci ildə Bakıda köhnə Marinskaya Qız Gimnaziyasının binasında (Filarmoniya ilə üzbəüz binada) ilk Darülmüəllimat (Qadın seminariyası) yaradıldı. Mədinə xanım Qiyasbəyli darülmüəllimata müdir, Gövhər xanım Qayıbova isə tədris hissəsi üzrə müavin təyin olundular. O dövrün qabaqcıl pedaqoqlarından Hüseyn Cavid, Üzeyir Hacıbəyli, Abdulla Şaiq, Azad bəy Əmirov, Atababa Musaxanlı, Məmməd Abdullayev, Səlimə Yaqubova, Şəfiqə Əfəndizadə, Xədicə Ağayeva, Sara Xuramoviç, Zəhra Şahtaxtinskaya, Sara Talışinskaya, Reyhan Topçubaşova, Nəimə Qazıyeva və başqaları Darülmüəllimatda pedaqoji və ictimai iş aparırdılar. Bu nümunəvi pedaqoji məktəbdə 120 qızın öz ana dilində təhsil alması Azərbaycan qadınının həyatında böyük mədəni inqilab idi.

Qısa bir vaxtda məktəbin şöhrəti bütün Cənubi Qafqaza, Dağıstana, Orta Asiyaya yayıldı.

Darülmüəllimatın 1925-ci ildəki birinci buraxılışında 16 tələbə qız vəsiqə alaraq ilk dəfə orta pedaqoji təhsillə müəllimlik fəaliyyətinə başladı. 1926-cı il buraxılışında 40 qız müəllimlik vəsiqəsi aldı. Bu qızlardan 23 -ü sonradan ali təhsil almış, 16 nəfəri orden və medallarla təltif olunmuş, 5-nə əməkdar müəllim adı verilmişdi.

Darülmüəllimatı qurtaran qızlardan Şəfiqə Qiyasbəyli, Ümidə Qafarzadə, Gövhər Seyidova, Ünsiyyə Rüstəmzadə, Mirvarid Dilbazi, Dürrə Zeynalova və başqaları Azərbaycan xalqının maariflənməsi və mədəni inkişafı sahəsində geniş fəaliyyəti, yüksək və nəcib xidmətləri ilə fərqlənmişlər.

### Kollec 1919-cu ildən indiyə kimi müxtəlif adlarla fəaliyyət göstərmişdir:

* 1919-1920-ci illərdə - Bakı Kişi Müəllimləri Seminariyası;
* 1920-1925-ci illərdə - Bakı Qadın Müəllimləri Seminariyası;
* 1925-1926-cı illərdə - Bakı Müttəhid (Birləşmiş) Müəllimlər Seminariyası;
* 1926-1930-cu illərdə - Azərbaycan Mərkəzi Beynəlmiləl Pedaqoji Texnikumu;
* 1936-1938-ci illərdə - M.Ə.Sabir adına Mərkəzi Beynəlmiləl Texnikumu;
* 1938-1963-cü illərdə - M.Ə.Sabir adına Rus Pedaqoji Məktəbi;
* 1968-ci ildən - M.Ə.Sabir adına Bakı Pedaqoji Məktəbi;
* 1991-ci ilin dekabrından - M.Ə.Sabir adına Bakı Pedaqoji Texnikumu;
* 23 dekabr 1999-cu ildən - M.Ə.Sabir adına Azərbaycan Dövlət Pedaqoji Kolleci;
* 13 iyun 2000-ci ildən - Azərbaycan Dövlət Pedaqoji Kolleci.

### İki təhsil ocağı birləşdirildi

1926-cı ilin sentyabrından Maarif komissarının sərəncamı ilə iki məşhur təhsil ocağı - darülmüəllimin (oğlanlar üçün) və darülmüəllimat (qızlar üçün) birləşdirilərək Bakı Müttəhid (Birləşmiş) Pedaqoji Texnikumu kimi fəaliyyət göstərdi. Texnikum tezliklə respublikanın təhsil ocaqları arasında əhəmiyyətli yer tutdu. Pənah Qasımov birləşmiş məktəbin direktoru, Camo Cəbrayılbəyli tədris işləri üzrə direktor müavini təyin olundu.

Həmin məktəbin ilk məzunlarından olan Cəfər Rəmzi o illərlə bağlı xatirələrini "Ədəbiyyat qəzeti"nin 1994-cü il 23 dekabr sayında belə yada salır: "Qapımızda gözətçi vardı. Həftədə 2 gün oradan çıxmağa icazə verilirdi: şənbə günü dərsdən sonra və cümə günü istəyənlər ailələri ilə görüşə bilərdi. Hərdənbir müəllim bizi kinoya və teatra aparardı. Məktəbimizdə intizam dedikcə möhkəm idi. Məktəblər birləşəndə mən onuncuda (son sinifdə) idim. Sinfimizdə 36 uşaq vardı. Əksəriyyəti qızlar idi. Bu təhsil ocağı ilk vaxtlar ibtidai sinif müəllimləri, məktəbəqədər tərbiyə müəssisələri üçün tərbiyəçilər hazırlayırdı.

1927-ci il iyun ayında birləşmiş məktəbin birinci buraxılışı oldu. Bu münasibətlə 25 may 1927-ci ildə "Gənc maarifçi" adlı xüsusi bir qəzet çap olundu. Qəzetdə Mərkəzi İcraiyyə Komitəsinin sədri Səmədağa Ağamalıoğlunun və Xalq Maarif komissarının təbrikləri də var idi. Yüz beş nəfər məzunun rayonlar üzrə siyahısı verilmişdi. Maraqlıdır ki, məktəbi Bakıdan 5 (3 oğlan, 2 qız), Qazaxdan 22 nəfər (çoxu qız) tamamladı...".

Xalq şairi Mirvarid Dilbazi o illəri xatırlayaraq yazırdı: "Müəllimlərimiz namuslu, vüqarlı, qeyrət məktəbi bitirmiş ziyalı vətənpərvərlər idilər. Burada hər şey şagirdin istedadı ilə ölçülürdü. Odur ki, o illərdə qız və oğlan seminariyalarında oxuyanlar arasında çoxlu istedadlar yetişdi".

Məktəbi bitirənlərin əksəriyyəti şəxsiyyətə pərəstiş dövründə güllələndi və ya həbs düşərgələrində, sürgünlərdə ömürlərini başa vurdular. Cəfər Rəmzi özü də o dövrün qurbanlarından olmuş, ömrünün 21 il iki ayını zindanlarda, həbs düşərgələrində keçirmişdi.

Nəhayət, adı yaddaşlarımızda daha çox Mirzə Ələkbər Sabir adına Bakı Pedaqoji Texnikumu kimi hifz olunan bu təhsil ocağı 1919-cu ildə Bakı Kişi Müəllimləri Seminariyası kimi fəaliyyətə başlasa da, müxtəlif zamanlarda öz adını dəyişsə də, bu gün həyata keçirdiyi ali və şərəfli missiya qətiyyən dəyişməyib. 1999-cu ilin dekabrından Azərbaycan Dövlət Pedaqoji Kolleci kimi fəaliyyət göstərən təhsil müəssisəsində hazırda əyani və qiyabi şöbələr üzrə dörd mindən artıq tələbə təhsil alır.

### Kollecdə hansı ixtisaslar üzrə mütəxəssislər hazırlanır?

Rəhbərlik etdiyim kollecdə "Məktəbəqədər təhsildə korreksiyaedici təlim", "İbtidai sinif müəllimliyi", "Məktəbəqədər təlim və tərbiyə", "Peşə təlimi", "Texnologiya müəllimliyi" , "Fiziki tərbiyə müəllimliyi" , "Ailə və ev təhsili", "Təsviri incəsənət müəllimliyi" ixtisasları üzrə mütəxəssislər hazırlanır. Kollecin 269 nəfərlik müəllim heyətində fəlsəfə doktorları, magistrlər və bakalavrlar təmsil olunur. Tələbə kontingentinin əksəriyyətini qızlar təşkil edən bu təhsil ocağında tədrislə yanaşı, tələbələrin estetik tərbiyəsi də xüsusi diqqətdə saxlanılır. Hazırda iki tədris korpusunda fəaliyyət göstərən Pedaqoji Kollecin zəngin maddi-texniki bazası mövcuddur. Belə ki, müasir elmi-texniki avadanlıqlarla təchiz edilmiş 36 kabinet, akt zalı, yeməkxana, idman zalları, rəssamlıq emalatxanası, arxiv, muzey, oxu zalı və elektron kitabxana kollecdə təlim-tərbiyəni müasir dövrümüzün və təhsil islahatlarının tələblərinə uyğun şəkildə qurmağa şərait yaradır.

Kollecin məzunlarının böyük əksəriyyəti region gəncləridir. Bu isə o deməkdir ki, ölkəmizin hər yerində bu qocaman təhsil müəssisəsinin yetirmələri böyük sevgi ilə Vətən övladlarını savadlandırırlar. Kollecin yüz illiyi ərəfəsində, bir il öncə buraya direktor təyin olunmağımı şəxsimə göstərilən böyük etimad kimi dəyərləndirirəm və bütün fəaliyyətimi bu etimadı doğrultmağa səfərbər etmişəm. Direktor təyin olunarkən mənə çox sadə şəkildə istiqamət müəyyənləşdirilərək tədrisin keyfiyyətinin yüksəldilməsi, kollecdə şəffaflığın tam bərpa olunması və tələbələrin Azərbaycanın milli-mənəvi dəyərlərinə uyğun yetişdirilməsi, gənclərin dövlət və dövlətçilik istiqamətində formalaşdırılması tövsiyə olundu. Mən əminliklə deyə bilərəm ki, kollecdə bu gün ölkə rəhbərliyinin tutduğu xəttə, Təhsil Nazirliyinin qoyduğu tələblərə uyğun tədris-tərbiyə işləri aparılır, şəffaflıq tam təmin olunur. Tədrisin keyfiyyəti məsələsinə gəlincə, keyfiyyət gündəlik tələbatdır. Cənab Prezidentin son çıxışlarında qeyd olunduğu kimi, təhsil müəssisəsi - milli maraqları, dövlətçiliyi qoruyan şəxsiyyət yetişdirməlidir. ADPK-də tələbələrin dövlətçilik, azərbaycançılıq ruhunda tərbiyəsinin tədris qədər vacib məsələ olduğu qeyd edilir və buna xüsusi diqqət yetirilir.





### 43 kollec arasında birinci

Pedaqoji Kollec *mektebgushesi.az* saytının 43 kollec arasında keçirdiyi və on doqquz mindən artıq respondentin iştirak etdiyi "Hansı kollecdə yay imtahan sessiyası şəffaf keçirilir?" mövzusunda virtual sorğuda 2 il ardıcıl olaraq qalib gəlib.

Cari ilin nəticələrinə görə, Pedaqoji Kollecin ibtidai sinif müəllimliyi ixtisasını bitirən 2 məzunumuz MİQ imtahanlarında 58 bal (maksimum göstərici 60 baldır), 5 nəfər 50 baldan çox, 8 nəfər 40-50 bal arasında keyfiyyət nəticəsi göstərib. Texnologiya müəllimliyi ixtisası üzrə 55 balla bir məzunumuz respublika ikincisi olub, sözügedən ixtisas üzrə 8 nəfər isə 40-50 bal arası toplayıb. Yenə həmin imtahanlarda fiziki tərbiyə müəllimliyi üzrə 2 məzunumuz 40-50, təsviri incəsənət müəllimliyi üzrə 7 nəfər 36-40 bal arası nəticə ilə fərqlənib. Bu yüksək rəqəmlər sadəcə statistika deyil, kollecin tədris keyfiyyətinin əyani göstəricisidir.

Yaranışının 100 illiyi ərzində Azərbaycanda xalqın maariflənməsi istiqamətində əvəzedilməz rolu olan Azərbaycan Dövlət Pedaqoji Kolleci hər zaman öz şöhrətinin zirvəsində dayanaraq təhsil islahatlarını uğurla tətbiq edən yüksək səviyyəli təhsil ocağı kimi fəaliyyət göstərir. Qocaman təhsil ocağı fəaliyyət göstərdiyi illər ərzində on minlərlə müəllim yetişdirmişdir. Kollec bu gün də öz tarixi missiyasını uğurla həyata keçirərək ölkənin ümumtəhsil məktəbləri üçün müasir təhsil texnologiyalarına yiyələnmiş müəllimlər hazırlayır.

### Təlim-tərbiyə işinin təşkili

Azərbaycan Dövlət Pedaqoji Kollecində təlim-tərbiyə işinin təşkili, tədris prosesində kollecin müəllim və tələbə heyətinin həyata keçirdiyi elmi-kütləvi, mədəni tədbirlər, tədris metodiki materiallar, kütləvi informasiya vasitələrində dərc olunmuş, kollecin fəaliyyətini işıqlandıran yazılardan nümunələrinin hazırlanması, gənc müəllimlərlə işin təşkili, müəllim və tələbələrin "açıq dərs" icmalları və bədii yaradıcılıq nümunələri geniş vüsət almışdır.

Orta ixtisas təhsili müəssisələri sırasında öz tarixi əhəmiyyəti ilə idarəçilik sahəsində demokratikliyi, tədris prosesinin təşkilində tətbiq olunan metodların müasirliyi və ənənələri ilə seçilən Azərbaycan Dövlət Pedaqoji Kolleci tədris işinin təşkilində olduğu kimi ümummilli liderimiz Heydər Əliyevin irsinin öyrənilməsi və gənclər arasında təbliği sahəsində də tədbirlərin mərkəzinə çevrilmişdir. Belə ki, kollecdə Azərbaycan dövlətinin müstəqilliyi, onun qorunub saxlanılması sahəsində ümummilli liderimizin çoxşaxəli fəaliyyəti, Heydər Əliyev şəxsiyyətinin keçdiyi maraqlı həyat yolu illər boyudur ki, sistemli şəkildə istər tədris, istərsə də tərbiyə prosesində tələbə gənclərə öyrədilir və aşılanır.

Əksəriyyəti qızlardan ibarət olan bu qocaman təhsil ocağında tələbələrin estetik tərbiyəsinə xüsusi diqqət yetirilir. Daha doğrusu, gün ərzində görülən bütün işlərin əsas özəyini estetik tərbiyə məsələləri təşkil edir.

Estetik tərbiyənin təsiri ilə gənclərin idrak qabiliyyəti, təfəkkürü inkişaf edir, təbiətdə, cəmiyyətdə, ictimai münasibətlərdəki gözəlliyi duymaq və qavramaq qabiliyyəti formalaşır, onların mənəvi aləmi zənginləşir, estetik zövqü cilalanır. Bütün bunlar gələcəkdə gənclərə həyatı, fəaliyyətini sağlam və normal zövq əsasında qurmağa kömək edir.

Ayrı-ayrı fənn dərnəkləri ilə yanaşı, burada fəaliyyət göstərən bədii özfəaliyyət, xalq rəqsləri ansamblı, tətbiqi rəsm, dram dərnəyi tələbələrin asudə vaxtının səmərəli keçməsini təmin etməklə, onların estetik tərbiyəsini inkişaf etdirir.

Kollecin müəllimləri Dövlət Proqramları və Təhsil Nazirliyinin layihələri çərçivəsində yerinə yetirildiyi bir sıra tədbirlərdə, seminar və treninqlərdə yaxından iştirak edirlər.

### Məzunlar ali məktəblərdə təhsillərini davam etdirirlər

Pedaqoji Kollecin müəllim kollektivi ölkədə gedən təhsil islahatlarının həyata keçirilməsində fəal iştirak etmiş, yüksək peşəkarlıq, tədqiqatçılıq nümayiş etdirərək pedaqoji ictimaiyyətə bir daha belə bir həqiqəti sübut etmişlər ki, ölkəmizin gələcəyi müəllimlərin peşə hazırlığı səviyyəsindən asılıdır.

Bu gün ölkənin hansı bölgəsinə nəzər salsaq Pedaqoji Kollecin məzunlarına rast gəlmək mümkündür. Onlar içərisində gənc nəslin təlim-tərbiyəsində böyük rolu olan müəllimlər, elm və mədəniyyət sahələrində fəaliyyət göstərən, dövlət qulluğunda çalışan, rəhbər vəzifədə işləyən ziyalılar, görkəmli insanlar az deyildir.

Kollecin məzunları bir sıra ali məktəblərə qəbul olaraq təhsillərini davam etdirirlər.

Kollecin tələbələri pedaqoji təcrübədə də özünü doğrultmuş ənənələrdən, müasir təlim texnologiyalarından, tədrisin təşkilində müxtəlif innovasiyalardan, informasiya-kommunikasiya texnologiyalarından istifadə edirlər. Belə ki, bu dərslərdən ən azı bir necə yeni əyanilik nümayiş etdirilir, yaxud proqram materialı mütləq başqa fənn üzrə qazanılmış bilik və bacarıqlara əsaslanmaqla həmin məlumatla əlaqələndirilmiş şəkildə keçirilir, tələbələrin fəallığı tam təmin olunur.

Kollecdə zəruri avadanlıqlarla, zəngin kitabxana ilə təmin edilmiş mərkəzin fəaliyyəti nəticəsində təhsil sahəsində innovativ texnologiyaların tətbiqi üzrə keçirilən xüsusi kursların daha səmərəli təşkilinə imkan yaranmış, bu proqramla işləyən siniflərdə pedaqoji təcrübə keçən tələbələrə göstərilən köməyin keyfiyyəti xeyli yüksəlmişdir.

Bu gün zəngin ənənələrə əsaslanan Azərbaycan Dövlət Pedaqoji Kolleci bundan sonra da öz fəaliyyəti dövründə daim yeniləşərək ölkə təhsilinin çağdaş inkişaf mərhələsində özünəməxsus yer tutacaqdır.

# Bir qızıl, gümüş, iki bürünc medal

## İdman liseyinin idmançıları Avropa Kuboku beynəlxalq turnirdə qalib olub

12-13 noyabr tarixlərində Macarıstan Respublikasının Gior şəhərində cüdo idman növü üzrə yeniyetmələr arasında Avropa Kuboku beynəlxalq turniri keçirilib.

30 ölkənin 506 cüdoçusunun mübarizə apardığı yarışda Azərbaycan milli yığma komandasının tərkibində Bakı şəhəri 1 nömrəli idman liseyinin cüdoçusu Nurlan Kərimli 50 kq çəki dərəcəsində finalda italiyalı idmançı Pietro Andreinini məğlub edərək Avropa kubokunun qalibi olub.

Liseyin yetirməsi Əlirza Şıxəlizadə 81 kq çəki dərəcəsində gümüş, Hüseyn Allahyarov 50, Aydın Rzayev 60 kq çəki dərəcəsində bürünc medal qazanıb. Qeyd edək ki, məktəbin idmançıları 14-20 noyabr tarixlərində öz ustalıqlarını artırmaq məqsədi ilə 7 günlük təlim-məşq toplanışına qatılıblar.




**“AZƏRBAYCAN MÜƏLLİMİ”**

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktorun müavini**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-67-74
**Reklam və elanlar** 539-20-77 (tel./faks)

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə 23 M, Mətbuat Evi, 5-ci mərtəbə

Qəzet “Azərbaycan müəllimi”nin kompüter mərkəzində yığılır və “Azərbaycan” nəşriyyatında çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı 5 saylı “Mətbuat şöbəsi”
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

“Azərbaycan müəllimi” qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 6501, **Sifariş** 4118

**Məsul növbətçi:** Ş.Cəfərov

# Ən böyük arzum dünya çempionu olmaqdır

**Samirə DADAŞOVA,**
*Bakıdakı Cavid Nurməmmədov adına 108 nömrəli tam orta məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi*

Əliəşrəf Asif oğlu Qafarov 17 iyul 2009-cu ildə Bakı şəhərində dünyaya göz açıb. 2015-ci ildə Sabunçu rayonu Maştağa qəsəbəsindəki Cavid Nurməmmədov adına 108 nömrəli orta məktəbin birinci sinfinə daxil olan Əliəşrəf uşaq yaşlarından idmana böyük həvəs göstərib. Ailəsi onun idmana marağını görüb evdə məşğul olmaq üçün hər cür şərait yaradıb. 2016-cı ildən isə o, Maştağa Olimpiya İdman Kompleksində karate müəllimi, məşqçi, üççat dünya, altıqat Avropa çempionu, İslam oyunlarının, Avropa oyunlarının mükafatçısı, 3-cü dan qara kəmər ustası, “Tərəqqi” medallı Niyazi Əliyevin rəhbərliyi ilə məşqlərə başlayıb.




Əliəşrəf bizimlə söhbət zamanı bildirdi ki, atıq 3 ildir məşq edir və bu illər ərzində bir çox nailiyyətləri olub. Bu uğurları əldə etmək üçün hər gün əzmlə çalışıb, məşqçinin verdiyi bütün tapşırıqları səylə yerinə yetrib. İlk diplom və medalı 2017-ci ildə Ramazan bayramına həsr olunmuş karate üzrə klublararası turnirdə alıb. İndiyədək müxtəlif yarışlarda 36 medal qazanıb. Dəfələrlə beynəlxalq yarışlarda iştirak edib, IX “Baku Open” beynəlxalq karate turnirində 1-ci və 2-ci, X “Baku Open” beynəlxalq karate turnirində isə 1-ci və 3-cü yerləri tutub. Gürcüstanda keçirilən “Tbilisi Grand Prix” yarışında 2 erməni idmançıya bir xal belə verməndən qalib gələrək 3-cü yerə layiq görülüb. Tbilisi şəhərində keçirilən digər bir turnirdə “Open Georgia” beynəlxalq karate turnirində də 3-cü yeri tutub. 2019-cu il 27-29 sentyabr tarixlərində Azərbaycanın Milli Qəhrəmanı, tankçı Albert Aqarunovun 50 illik yubileyinə həsr olunmuş “Olimpiya ümidləri” ənənəvi beynəlxalq karate turnirində 1-ci yeri tutub, əlavə olaraq Gənclər və İdman Nazirliyi tərəfindən döyüşlərdə fəal iştirak etdiyinə görə fəxri fərmanla təltif edilib. Üç il ərzində karatedə daim yüksək nailiyyətlər əldə etdiyinə görə noyabrın 10-da Milli Qəhrəman, şəhid Şikar Şikarovun xatirəsinə həsr olunmuş 24-cü respublika çempionatında Abşeron rayon Gənclər və İdman İdarəsi tərəfindən “Çempionlar çempionu” adına layiq görülüb.

Ə.Qafarov dəfələrlə respublika və beynəlxalq karate yarışlarında iştirak edib, yüksək yerlər tutaraq diplom və medallar qazanıb. Ötən ayın 20-22-də İran İslam Respublikasında keçirilən Beynəlxalq Şotokan Tenşinkan Karate kubokunda 10-11 yaşlılar arasında 30 kq çəkidə Əliəşrəf 4 döyüşdə iştirak edib, 2 erməni rəqibinə qalib gələrək II yerə layiq görülüb.

Hazırda məktəbimizin 5b sinfində təhsil alan Əliəşrəf Qafarov qeyd etdi ki, bütün nailiyyətlərimə görə mənə inanan, mənə daim dəstək olan ailəmə, bundan əlavə məşqçim Niyazi Əliyevə, nəhayət, doğma məktəb kollektivimə minnətdaram. Hər dəfə birinci yer tutduğumda və fəxri kürsüyə çıxdıqda çəkdiyim zəhmətin hədər getmədiyini görür və qürur duyuram. Bu hiss məni daha da səylə öz üzərimdə işləməyə, yeni nailiyyətlər qazanmağa sövq edir.

Əliəşrəfin məşqçisi Niyazi Əliyev bu gün Azərbaycanda idmana böyük qayğı göstərildiyini bildirdi. Bu qayğının nəticəsidir ki, idmançılarımız müxtəlif beynəlxalq yarışlarda iştirak edir, uğurlar qazanırlar. Yetirməsinin uğurlarına sevinən karate ustası onun gələcəkdə güclü idmançı kimi yetişəcəyinə, ölkəmizi beynəlxalq yarışlarda layiqincə təmsil edəcəyinə inandığını bildirdi.

Ən böyük arzusunun dünya çempionu tituluna yiyələnmək olduğunu dilə gətirən Ə.Qafarov təhsilini də uğurla davam etdirir, dərslərinə hazırlaşmağı da yaddan çıxarmır. Gənc idmançıya gələcək həyatında, təhsildə və yarışlarda daha böyük uğurlar arzulayırıq.

# Etibarsız sayılır

**Xaçmaz rayon** Qaradağlı kənd tam orta məktəbini 1996-cı ildə bitirmiş Veloev Ruslan Xasanbay oğluna verilmiş 09 nömrəli ümumi orta təhsil haqqında attestat əvəzi arayış itdiyi üçün etibarsız sayılır.

**İsmayıllı rayon** Topçu kənd tam orta məktəbini 1983-cü ildə bitirmiş Ələsgərov Səhliyar Bəşir oğluna verilmiş 785761 nömrəli orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər “**Təfəkkür” Liseyini 2000-ci ildə bitirmiş Abdullayev Elşən Adil oğluna verilmiş 422673 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**“Zəngi” Liseyini** 2001-ci ildə bitirmiş İsayeva Ülkər Hamlet qızına verilmiş A-511598 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Xəzər Universitetini** 2006-cı ildə bitirmiş İsayeva Ülkər Hamlet qızına 2007-ci ildə verilmiş A-012366 nömrəli fərqlənmə bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**İsmayıllı rayon** Qalacıq kənd tam orta məktəbini 1988-ci ildə bitirmiş Əlimuradov Çingiz Mişa oğluna verilmiş AK-384564 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 275 nömrəli tam orta məktəbi 2012-ci ildə bitirmiş Dadaşova Natəvan İbrahim qızına verilmiş A-093954 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 134 nömrəli tam orta məktəbi 1987-ci ildə bitirmiş Sadıqov Süleyman Edson oğluna verilmiş AK-288782 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 8 nömrəli tam orta məktəbi 1993-cü ildə bitirmiş Balayeva Təranə Valid qızına verilmiş 042246 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Milli Aviasiya Akademiyası** tərəfindən 2016-cı ildə Əfəndiyeva Ülviyə Veysəl qızına verilmiş A-106669 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Zərdab rayonu** Qaravəlli kənd tam orta məktəbini 2019-cu ildə bitirmiş Mahmudova Yasəmən Faxrət qızına verilmiş E-191285 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2011-ci ildə Balayeva Zümrud Əflatun qızına verilmiş YB-014401 nömrəli Yenidənhazırlanma Haqqında diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Texniki Universiteti** tərəfindən 1996-cı ildə Ələkbərova Bənövşə Əyyub qızına verilmiş AB-I-051166 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 159 nömrəli tam orta məktəbin IX sinfini 2015-ci ildə bitirmiş Şirinova Mətanət Miyəddin qızına verilmiş A-494503 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 7 nömrəli tam orta məktəbin IX sinfini 1993-cü ildə bitirmiş Səfərova İradə Əşrəf qızına verilmiş A-144506 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 126 nömrəli tam orta məktəbi 2009-cu ildə bitirmiş Mirzəyev Turan Cavanşir oğluna verilmiş B-591182 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 65 nömrəli tam orta məktəbi 2008-ci ildə bitirmiş Məmmədov İntiqam Köçəri oğluna verilmiş B-489313 nömrəli orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 175 nömrəli tam orta məktəbi 1995-ci ildə bitirmiş İsmayılova Səbinə Ayaz qızına verilmiş A-089372 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Lerik rayon** Züvüç kənd tam orta məktəbini 2014-cü ildə bitirmiş Balızadə Pərvin Əlizamin oğluna verilmiş A-327216 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad şəhər** 3 nömrəli ümumi orta məktəbin IX sinfini 1992-ci ildə bitirmiş Teymurova Vüsalə Aydın qızına verilmiş 092918 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayon** Ağdaş kənd tam orta məktəbini 1995-ci ildə bitirmiş Gözəlova Sabirə İbrahim qızına verilmiş 10001 nömrəli attestat əvəzi arayış itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayon** Göytəpə şəhər 2 nömrəli tam orta məktəbi 2007-ci ildə bitirmiş Abışov Anar Habil oğluna verilmiş B-459252 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 304 nömrəli tam orta məktəbin IX sinfini 2007-ci ildə bitirmiş Orucova Samirə Qadir qızına verilmiş A-560823 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası** tərəfindən 2004-cü ildə Məmmədli Tural Allahverdi oğluna verilmiş A-142821 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 1992-ci ildə Qiyasbəyli Anar Tofiq oğluna verilmiş ЦВ-832130 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Ərkivan qəsəbə 3 nömrəli tam orta məktəbin IX sinfini 1994-cü ildə bitirmiş Heydərova Gülnarə Asif qızına verilmiş 0496 nömrəli şəhadətnamə əvəzi arayış itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** S.Sadıqov adına Çaparlı kənd 1 nömrəli tam orta məktəbi 1999-cu ildə bitirmiş Rəhimov Vasif Ələsgər oğluna verilmiş A-362588 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Ə.Cəmil adına Zəyəm qəsəbə 1 nömrəli tam orta məktəbi 2015-ci ildə bitirmiş Heydərov Təbriz Əkbər oğluna verilmiş A-429032 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Ə.Cəmil adına Zəyəm qəsəbə 1 nömrəli tam orta məktəbin IX sinfini 2000-ci ildə bitirmiş Alırzayeva Səbinə Telman qızına verilmiş B-342723 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad İnstitutu** tərəfindən 1997-ci ildə İbrahimov Xaqani Nəbi oğluna verilmiş AB-I-061970 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Ordubad şəhər** 1 nömrəli tam orta məktəbin IX sinfini 1992-ci ildə bitirmiş Rzayeva (Babayeva) Zəminə Kamil qızına verilmiş A-568047 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**DİN-Polis Akademiyası** tərəfindən 1995-ci ildə Rəhimov Kniyaz Babaxan oğluna verilmiş 010495 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft Akademiyası** tərəfindən 1992-ci ildə Əsədullayev Elçin Tofiq oğluna verilmiş ЦВ-853966 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Goranboy rayon** Səfikürd kənd tam orta məktəbini 2003-cü ildə bitirmiş Allahverdiyeva Nurlana Rasim qızına verilmiş A-706335 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2005-ci ildə Əfəndiyev Arif Hikmət oğluna verilmiş B-037745 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 29 nömrəli tam orta məktəbi 2016-cı ildə bitirmiş Şaxarov Vüqar Vaqif oğluna verilmiş A-526432 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti nəzdində Azərbaycan Dövlət Maliyyə İqtisad Kolleci** tərəfindən 2017-ci ildə Allahverdiyeva Lamiyə Natiq qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti** tərəfindən 1997-ci ildə İbadov Mahir Höccət oğluna verilmiş AB-I-075786 nömrəli fərqlənmə diplomu itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan şəhər** 15 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Quybaşev (Qubuşov) Faiq Fikrət oğluna verilmiş A-745086 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**İmişli şəhər** 3 nömrəli tam orta məktəbi 2003-cü ildə bitirmiş Xəlilova Günel Xəlil qızına verilmiş A-657960 nömrəli orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Quba rayon** R.Mançarov adına Əlik kənd ümumi orta məktəbini 2005-ci ildə bitirmiş Sultanov Hidayət Tərlan oğluna verilmiş A-187391 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Türk Dünyası Bakı Atatürk Liseyini** 2011-ci ildə bitirmiş Rəcəbli Ceyhun Elçin oğluna verilmiş A-006403 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Ərkivan qəsəbə 1 nömrəli tam orta məktəbin IX sinfini 1994-cü ildə bitirmiş Hüseynova Kəmalə Adil qızına verilmiş 143647 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Texniki Universitetinin nəzdində Bakı Rabitə və Nəqliyyat Kolleci** tərəfindən 2019-cu ildə Mirzəzadə Fuad Zəfər oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Şəki rayonu** İnçə-Zunud kənd tam orta məktəbini 1998-ci ildə bitirmiş Fərəcova Aygün Vəli qızına verilmiş A-147666 nömrəli orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 255 nömrəli tam orta məktəbin IX sinfini 2001-ci ildə bitirmiş Fətəliyev Bəhruz Nizami oğluna verilmiş 393395 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Laçın rayon** Vağazin kənd 1 nömrəli tam orta məktəbi 2007-ci ildə bitirmiş Rzayeva Naibə Qulu qızına verilmiş B-451357 nömrəli orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2015-ci ildə Canıyeva Bənizər Aydın qızına verilmiş A-067437 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Qərbi Kaspi Universiteti** tərəfindən 2018-ci ildə Kazımova Nərmin Samir qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

“Azərbaycan müəllimi” qəzetinin kollektivi Bakı İdarəetmə və Texnologiya Kollecinin direktoru Faiq Şahbazlıya bacısı

**GÜLSÜM XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

132-134 nömrəli təhsil kompleksinin kollektivi kompleksin ibtidai sinif müəllimi Aminə Çələbovaya əzizi

**ALLAHYAR QARAGÖZOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bakı şəhər 125 nömrəli tam orta məktəbin direktoru Zeynəb Əliyeva və pedaqoji kollektivi Xəzər rayon TİAHİ-nin sədri Həzərxan Əbilova qardaşı

**ƏBİLOV ƏLİXAN VƏLİ OĞLUNUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı şəhər Xəzər rayonu 181 nömrəli tam orta məktəbin kollektivi rayon Həmkarlar Komitəsinin sədri Həzərxan Əbilova qardaşı

**ƏLİXAN ƏBİLOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

# İmkan, imkansızlıq və təhsil

## Maddi dəyərlər daha yaxşı oxumağa təsir edirmi?



⇦ Əvvəli səh.1

**Rüstəm QARAXANLI**

Müəyyən olunub ki, imkanlı ailələrdən olan uşaqlarda yaddaşın formalaşmasına cavabdeh olan hippokamp daha iridir. Məlumdur ki, beyin qabığının sahəsi uşağın koqnitiv bacarıqlarına ciddi təsir göstərir. Sən demə, kasıb ailələrdən olan uşaqlarda həmin bu sahə onların varlı həmyaşıdlarındakına nisbətən 6% kiçikdir. Bu fərq özünü xüsusilə nitq və özünənəzarətdə büruzə verir.

Analoji mənzərə ilə qabığın qalınlığını öyrəndikdə rastlaşmaq olar. Məlumdur ki, yaş keçdikcə o, kiçilir. Ancaq bu kiçilmə imkansız ailələrin təmsilçilərində tez başlayır, nəinki imkanlı ailələrin övladlarında. Belə ki, kasıblarda proses artıq uşaqlıqda gerçəkləşirsə, varlı ataların uşaqlarında yeniyetmə çağının sonunadək uzanır. Qabığın qalınlığının sürətlə azalması onunla nəticələnir ki, uşaqların beyni elastikliyini itirir və nəticə etibarilə müxtəlif bacarıq və biliklərin əldə olunması üçün dəyişmək imkanından məhrum olur.

Beləliklə, iqtisadi durumu fərqli olan uşaqların beyinləri fərqlənir. Ancaq onların təhsildə əldə etdikləri uğurların fərqi yalnız bu amillə bağlıdırmı? Məsələn, dahi rus yazıçısı Turgenevin beyni kiçik olub. Bunu hamı bilir. Ancaq bu qüsur ona gözəl yazıçı olmaq yolunda ciddi maneələr yaratmayıb.

İnsanın quruluşu və beyninin ölçüsünün onun təhsil almaq imkanlarına təsirinə dair çoxsaylı araşdırmalar həyata keçirilib. Ancaq xüsusi nəticə əldə olunmayıb. Odur ki, alimlərin qarşısında sual durur: həqiqətənmi hippokampın ölçüsü, beyin qatının qalınlığı və sahəsi insan oğlunun koqnitiv bacarıqlarına təsir göstərir?

Amerikalı alimlər Set Pollak və Con Qabriyel suala müsbət cavab verirlər. Onların fikrincə, belə bir əlaqə mövcuddur. Pollak və Qabriyelə görə, məktəbdə dərs proqramını çatdırmayıb yerinə yetirməyən uşaqların 15-45%-də səbəb məhz budur. Özü də diqqət yetirin: həmin o 15-45% uşaqlar dedikdə, məhz kasıb ailələrin övladları nəzərdə tutulur. Təbii ki, ciddi məsuliyyət tələb edən iddiadır. Elə alimlərin opponentləri də bu fikirdədirlər.

Yaxşı, tutaq ki, bu iddia absurddur. Bəs iqtisadi imkanları fərqli olan ailələrin uşaqlarının beyinləri niyə fərqlidir? Bəlkə səbəb qidadadır? Sirr deyil ki, varlı ailələrin uşaqları dünya nemətlərinin əksəriyyətindən dadmaq imkanına malikdirlər və hər cür vitaminlərlə qidalana bilirlər. Kasıb ailələrdə isə süfrəyə çıxarılan azuqə əldə edilə bilənlərlə məhdudlaşır və bir çox hallarda orqanizm tələb olunan bütün vitaminlərlə təmin edilmir.

Qida fərqini də qoyaq kənara. Ailələrdəki stress. Gərginlik, tərbiyə fərqi və məktəbdəki təhsilin keyfiyyəti. Bəlkə bu amillərin kombinasiyası mövzumuz olan beyin inkişafının fərqinə öz təsirini göstərir? Yaxud bəlkə söhbət genlərdən gedir? Təəssüf ki, elmin bütün bu suallara səhih və konkret cavabı yoxdur. Beynin inkişafındakı fərqlərin məhz nə vaxt peyda olmağa başladığını öyrənmək olduqca vacibdir. Bu istiqamətdə həyata keçirilən bir sıra araşdırmalar göstərir ki, uşaqların dünyaya gəlmələrinin ilk 4 günündə onların beynində hər hansı fərq müşahidə edilmir. Ancaq cəmi 4 gün? Az deyil? Axı sonra nələr baş verir? Alimlər deyir ki, sonra postnatal dövr başlayır və sosial faktorlar işə düşür.

"Postnatal" dövr nədir? Açırıq "Vikipedia"nı və oxuyuruq: "Fərdi inkişaf dövrü bətndaxili mərhələdən çox fərqlidir. Əgər birincidə orqanizm sabit şəraitli mühitdə inkişaf edirsə, doğulandan sonra insana ətraf mühit ciddi təsir göstərməyə başlayır. Böyüyən orqanizm yeni şəraitə uyğunlaşmağa çalışır və ciddi dəyişikliklərə məruz qalır". Və məhz bu andan etibarən valideynlərdən keçən keyfiyyətlər həmin bu inkişaf prosesinə qoşulur. Postnatal inkişafı şərti olaraq bir sıra mərhələlərə bölürlər. Bu müddətlər ərzində insan orqanlarının ölçüsü müəyyən olunmağa başlayır və orqanizmin formalaşması prosesi həyata keçir. Ən çox qəbul edilən mərhələ bölgüsü aşağıdakı kimidir:

1. Yenicə doğulmuşlar - doğum günündən etibarən təqribən 10 gün;
2. Südəmər dövr - 10 gündən 1 ilədək;
3. İlkin uşaqlıq - 1-3 yaş;
4. İlk uşaqlıq - 4-7 yaş;
5. İkinci uşaqlıq - 8-12 yaş (oğlanlar), 8-11 yaş (qızlar);
6. Yeniyetməlik - 13-16 yaş (oğlanlar), 12-15 yaş (qızlar);
7. Gənclik - 17-18 yaş (oğlanlar), 16-18 yaş (qızlar);
8. Yetkinlik dövrü - ilk mərhələ: 19-35 yaş;
9. Yetkinlik dövrü - ikinci mərhələ: 36-60 yaş (kişilər), 36-55 yaş (qadınlar);
10. Ahıllıq dövrü - 61-74 yaş (kişilər), 56-74 yaş (qadınlar);
11. Qocalıq - 75-90 yaş;
12. Uzunömürlülük - 90 yaşdan yuxarı.

### Düşüncə fərqi

Kolumbiya Universitetinin Pedaqoji Kollecinin neyrobioloqu Nobl Kimberli hesab edir ki, belə ehtimalları və araşdırma nəticələrini olduqca ehtiyatlı şərh etmək lazımdır. Onun fikrincə, ailə gəlirləri ilə koqnitiv bacarıqlar arasındakı əlaqə əminliklə səbəb və nəticə olaraq qəbul edilə bilməz. Ən azı ona görə ki, neyrobioloqların bu suala cavabı yoxdur.

Uşağın beyninin ölçüsü və bacarıqlarına sosial faktorlar və genlərin təsirini öyrənənlərə görə, valideynlərin dünyaya baxışı da prosesə təsirsiz ötüşmür. Elədirsə, gəlin baxaq varlı və kasıb təbəqə təmsilçilərinin dünyaya baxışındakı fərqlərə. Təbii ki, bu fərqlər mütləq xarakterli deyil, ancaq reallıq budur ki, biz hər hansı addımı atarkən, işlərimizi planlaşdırarkən, hətta nə barədə düşünərkən belə, sosial-iqtisadi durumumuzu, başqa sözlə, cibimizdəki vəziyyəti göz önünə gətirir, saf-çürük edir, hesablayırıq. Kim deyir ki, uşaq bütün bunları görmür və nəzərə almır? Və illərlə formalaşan və xarakterə çevrilən bu adətimiz nədən varislik yoluyla uşaqlara da transformasiya olunmasın?

1. İmkanlı adamlar imkanlarını artırmaq barədə düşünürlər. Onlar hətta risk də edə bilərlər. Qoy uğur şansı lap az olsun. Bu dəfə alınmaz, bir də cəhd edərəm. İlk cəhdlər uğursuz olsa belə, davam edirlər, düşünürlər ki, nəticə nə vaxtsa əldə olunacaq. İmkanı məhdud olan şəxslər isə əllərində olan kiçik imkanı riskə atmaq istəmirlər. Siz heç lotereya biletini alanların statistikasına göz gəzdirmisiniz? Alanların hamısı ümid edir ki, bəxtləri gətirəcək. Onlar risk etməyi sevmirlər, baxmayaraq ki, itirməyə heç nə yoxdur. Əllərində-ovuclarında olanları da qoruyub saxlamağa çalışırlar, kiçik faizlərlə banklara yerləşdirirlər, əsas odur, pullar təhlükəsizlikdə olsun. Başlıca qorxu budur: İstəyərdim çox olsun, amma azı da itirməkdən qorxuram.

2. Varlılar nəticəyə görə təltiflənmək istəyirlər, kasıblar iş vaxtına görə. İmkanı az olan və risk etməyi sevməyən şəxs sabit qazanc axtarışındadır. Sabit və təhlükəsiz qazanc. Bir çox insan öz bacarıqlarına inanmır. Ona görə də düşünür ki, onu bacarıqlarına görə təltif etsələr, bunun maddi ekvivalenti çox az olacaq. Təbii ki, belə düşüncə ilə daha çox gəlir əldə etmək çətin işdir. İmkanlı şəxs isə işinin müqabilində qazanmaq istəyir. Axı, onun maaş almasa ac qalmaq təhlükəsi yoxdur. Bu düşüncə tərzi onları daha çox həvəsləndirir, yönəldir. Onlar düşünürlər ki, sürəti və tempi artırdıqca, daha çox qazanacaqlar.

3. İmkansız ailə uşağını oxutmağa çalışır ki, yaxşı təhsil hesabına övladı sosial durumunu yüksəltsin. Ali məktəbdə yaxşı savad alandan sonra gəlir gətirəcək işdə işləmək üçün uşaq məktəbdə inadla oxumalıdır. Psixoloqlara görə, bu düşüncə tərzi uşağa yüksək məvacibli peşə qazandıra bilər, var-dövləti isə həmişə yox. Onlarla milyarder var ki, təhsili yoxdur. Henri Forddan tutmuş, Bill Geytsədək. Ancaq təhsilsizlik onlara xoşbəxt olmaq üçün maneə ola bilməyib.

**(Ardı növbəti sayımızda)**

# Təhsil Nazirliyinin əməkdaşları autizm sindromlu uşaqlarla görüşüblər



Dekabrın 5-də Təhsil Nazirliyinin bir qrup əməkdaşı "Birgə və Sağlam" İctimai Birliyinin nəzdində fəaliyyət göstərən Autizm sindromlu uşaqlar üçün Reabilitasiya Mərkəzində olub.

Mərkəzin "Kashalata" kafe-atelyesində baş tutan görüşdə qeyd olunub ki, kafe-atelye "Birgə və Sağlam" İctimai Birliyi tərəfindən 2018-ci ildə istifadəyə verilib. Autizm sindromlu uşaqların cəmiyyətə inteqrasiyası üçün nəzərdə tutulan bu məkanda xüsusi qayğıya ehtiyacı olan uşaqlara müxtəlif istiqamətlərdə peşə öyrədilir, təlimlər keçirilir. Məqsəd autizm sindromlu uşaqların peşə bacarıqlarına yiyələnmələrinə, eyni zamanda valideynlərinə dəstək verməkdir.

Sonda Təhsil Nazirliyinin əməkdaşları autizm sindromlu uşaqların təlim prosesi və onların əl işləri ilə yaxından tanış olublar.

# "Moskva dostları qarşılayır"

## İncəsənət Gimnaziyasının şagirdlərinin beynəlxalq festivalda növbəti uğuru



25 noyabr - 3 dekabr tarixlərində Moskva şəhərində Vladimir Spivakov Fondu tərəfindən təşkil olunmuş XVI "Moskva dostları qarşılayır" Beynəlxalq festivalı keçirilib. Beynəlxalq festivalda dünyanın 36 ölkəsindən gənc istedadlar Moskvanın konsert salonlarında konsert proqramları ilə çıxış etmişlər. Təhsil Nazirliyinin dəstəyi ilə AMK tərkibində İncəsənət Gimnaziyasının şagirdləri festivalda Azərbaycanı layiqincə təmsil edərək uğurlu çıxışları ilə diqqət çəkiblər.

Noyabrın 25-də Beynəlxalq Musiqi Evinin Svetlanov zalında festivalın açılışı olub. Açılış mərasimində konsert proqramı ilə yanaşı gənc rəssamların rəsmlərindən ibarət sərgi də nümayiş olunub. AMK tərkibində İncəsənət Gimnaziyasının Təsviri və tətbiqi sənət şöbəsinin şagirdləri Mədina Həmzətova və Fərəh Kərimovanın rəsmləri təşkilatçılar tərəfindən seçilərək sərgidə nümayış etdirilib. Beynəlxalq müsabiqələr laureatı Mədina Həmzətova festivalın açılış mərasimində iştirak edib, televiziya kanallarına müsahibə verib.

Noyabrın 29-da Dövlət Akademik Böyük Teatrın Bethoven zalında X sinif şagirdi, respublika və beynəlxalq müsabiqələr laureatı, kamança ifaçısı Hüseyn Nağıyev bəstəkar Həsən Rzayevin "Cahargah" rapsodiyasını böyük məharətlə ifa edərək tamaşaçıları heyrətləndirib.

# "Dövlət Proqramı mənə xarici ölkədə təhsil almaq imkanı verdi"

## *Rəhim Məmmədli:* "Məqsədim proqramlaşdırma üzrə dünya finalına qatılmaqdır"



**Tanıtım:** 1998-ci ildə Bakı şəhərində anadan olub. 2004-cü ildə imtahan verərək Bakı Atatürk Liseyinə qəbul olub. Məktəb illərində bir sıra fənn olimpiadalarında müvəffəqiyyətlə iştirak edib. "Kimya", "Azərbaycan dili", "Riyaziyyat" fənləri üzrə olimpiadanın rayon və şəhər turlarında fərqlənib. XI sinifdə müstəqil surətdə hazırlaşdığı IELTS imtahanından müvəffəqiyyətlə keçərək 7.5 bal toplayıb. Liseyi qızıl medalla bitirib. Ali məktəblərə qəbul imtahanında 695 bal toplayaraq Bakı Ali Neft Məktəbinin (BANM) "Proseslərin avtomatlaşdırılması mühəndisliyi" ixtisasına qəbul olub. Prezident təqaüdünə layiq görülüb.

BANM-da bir il oxuduqdan sonra Kanadanın Britaniya Kolumbiyası Universitetinə (UBC) qəbul olub. Hazırda "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində Kanadanın "University British Columbia" ali məktəbində "Kompüter elmləri" ixtisası üzrə bakalavr təhsili alır.

**Oruc MUSTAFAYEV**

Həyatda hər kəsin uğuru öz əlindədir. Yüksək hədəflərə gedən yolda uğur insandan istedad, yaradıcı enerji və fədakarlıq tələb edir. Bir çox hallarda bu yol öz başlanğıcını məktəbdən götürür. Rəhim Məmmədlinin də uğurları məktəbdən başlayıb. Hazırda Kanadada təhsil alan Rəhim bir azərbaycanlı gənc olaraq ABŞ-da ali məktəb tələbələri arasında keçirilən proqramlaşdırma yarışında ölkənin Stanford, Kaliforniya Berkli, Vaşinqton kimi nüfuzlu universitetlərindən olan bir çox həmyaşıdlarına qalib gələrək öz istedad və bacarığını göstərə bilib. R.Məmmədlinin üzvü olduğu UBC komandası yarışmada 2-ci yerin qalibi olub.

*- Orta məktəbdə daha çox hansı fənlərə maraq göstərirdiniz? İlk məktəb illərinizdə hansı uğurlarınız olub?*

- Orta məktəbdə bütün fənləri yaxşı oxuyurdum. Dərsləri qavramaqda çətinlik çəkmirdim. Test nəticələrim adətən çox yüksək olurdu. Ən çox sevdiyim fənlər isə riyaziyyat, kimya, fizika idi.

*- Uşaqlıqda daha çox hansı peşəni hədəf seçmişdiniz? Gələcəklə bağlı hansı planlar qururdunuz?*

- Hələ orta məktəbə getməmişdən riyazi əməlləri beynimdə hesablayırdım. Məktəb illərində riyaziyyatın öhdəsindən asanlıqla gəlirdim. Mən 7-ci sinifdə oxuyanda evimizə kompüter alındı. Tezliklə kompüterə çox aludə oldum. Bundan sonra ağlımda gələcəkdə kompüter mühəndisi olmaq fikri yarandı.

*- Sizcə, bilik sahəsində zirvəyə çatmaq üçün insandan nələr tələb olunur?*

- Məncə, biliyə yiyələnmək üçün müəyyən qədər zəhmət çəkmək lazımdır. Önəmlisi budur ki, əldə olunan bilik, bacarıq sevdiyin bir sahəyə aiddirsə, bu, əziyyətli zəhmətdən çox, marağa çevrilir.

*- İstedadlı gənclərin təhsil həyatında Dövlət Proqramının əhəmiyyətini necə qiymətləndirirsiniz? Bütün uğurlarınızda sizə dəstək olmuş kimlərin rolunu qeyd edərdiniz?*

- Dövlət Proqramı mənə xarici ölkədə təhsil almaq imkanı verdi. Bunun üçün mən Azərbaycan dövlətinə və Təhsil Nazirliyinə çox minnətdaram. Bu gün burada təhsil almağım tək mənim zəhmətim deyil, həm də birinci sinifdən on birinci sinfə kimi mənə dərs demiş bütün müəllimlərimin zəhmətinin nəticəsidir. Xaricdə təhsil alarkən müxtəlif çətinliklərlə qarşılaşıram. Bu çətinliklərin öhdəsindən gəlməkdə hər zaman Təhsil Nazirliyinin Beynəlxalq Əməkdaşlıq Şöbəsinin əməkdaşları, xüsusilə Nərmin xanım, Elçin müəllim mənə kömək və dəstək oldular.

*- Universitet və tələbə həyatınız barədə danışardınız...*

- Universitet özü çox böyükdür və maraqlıdır. Ali məktəbdə 60 minə yaxın tələbə təhsil alır. Bundan başqa, universitetdə 100-dən çox tələbə klubu var. Ali məktəbin ərazisi 400 hektardan çoxdur.

Universitetdə asudə vaxtlarımda idmanla məşğul oluram. Trenajora getməyi, basketbol və tennis oynamağı sevirəm. Bundan əlavə, dostlarımla vaxt keçirməyi çox xoşlayıram.

İndiyə kimi xeyli müəllimlə qarşılaşmışam. Heç vaxt elə olmayıb ki, götürdüyüm iki müxtəlif dərsi eyni müəllim keçsin. Hər cür müəllim var. Hər müəllimin xasiyyəti fərqlidir.

*- Azərbaycanlı tələbə özünü Kanadanın nüfuzlu universitetində necə hiss edir?*

- Ara-sıra məişətlə bağlı müəyyən çətinliklər yaşayıram. Yemək bişirməyi çox yaxşı bacarmamağım ya əlavə pul xərcləməyimə, ya da çox vaxt itirməyimə səbəb olur.

*- Ali məktəbdə tələbələrin elmi tədqiqatlara cəlb olunması nə səviyyədədir və sizi elmi tədqiqatlar maraqlandırırmı?*

- Kompüter elmləri sahəsində elmi tədqiqatların digər elm sahələrinə nisbətən daha geniş yayıldığını deyə bilərəm. Müəllimlər dərslərdə yaxşı nəticə göstərən tələbələrlə maraqlanır, onları elmi tədqiqatla məşğul olmağa cəlb etməyə çalışırlar. Mən də bu elmi tədqiqatlarla yeni maraqlanmağa başlamışam. Mümkün olarsa, mən də bu sahədə bir iş görmək istəyərdim.

*- Sizin komanda bu yaxınlarda proqramlaşdırma yarışında 2-ci yeri tutub. Bu müsabiqə barədə danışa bilərdiniz?*

- Müsabiqənin adı "ICPC - International Collegiate Programming Contest" - Beynəlxalq Universitet Proqramlasdırma Yarışıdır. Bu müsabiqənin bir neçə mərhələsi olur. Birinci mərhələ universitetdaxili, fərdi mərhələdir, ikincisi isə region mərhələsidir. UBC universiteti ABŞ-ın Simal-Qərb regionuna aiddir. Stanford, Kaliforniya Berkli, Vaşinqton universitetləri də həmçinin bu regiona aiddir. Mənim üzvü olduğum komanda region mərhələsində Stanford, Berkli və Vaşinqton universitetlerinin bütün komandalarını məğlub edərək 2-ci yerə çıxdı.

*- Gələcək planlarınız barədə nə deyə bilərsiniz?*

- Hələ ki, məqsədim daha çox məşq etmək və hazırlaşıb gələn il bu yarışda 1-ci yeri qazanmaq və proqramlaşdırma üzrə dünya finalına qatılmaqdır.